# QARABAĞ AZƏRBAYCANDIR!




RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 246 (8562) ÇƏRŞƏNBƏ, 25 noyabr 2020-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az




# İLHAM ƏLİYEV 27 ildən sonra Ağdamda da Azərbaycan bayrağını ucaltdı!



## Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva işğaldan azad edilmiş Ağdam şəhərində olublar

**Xəbər verdiyimiz kimi, noyabrın 23-də Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyev və birinci xanım Mehriban Əliyeva işğaldan azad edilmiş Ağdam şəhərində olublar.**

AZƏRTAC xəbər verir ki, Ağdama gedən yolda avtomobili özü idarə edən **Prezident İlham Əliyev** dedi:

- Baxın, düşmənin müdafiə xətti. Ağdam şəhərinə qədər düşmənin bir neçə müdafiə xətti var idi, baxın.

İndi biz işğaldan azad edilmiş torpaqlara keçirik. İstiqamət Ağdam şəhəridir. Ağdam şəhərini və Ağdam rayonunun işğal altında olmuş torpaqlarını biz bir güllə atmadan azad etdik. Düşməni döyüş meydanında məğlub edərək məcbur etdik ki, Ağdam rayonundan çəkilsin.

Baxın, daha bir müdafiə xətti. Sağda da Azərbaycan vətəndaşlarının düşmən tərəfindən dağıdılmış evləridir. Bütün dünya görsün ki, vəhşi düşmən bizim kəndlərimizi nə günə qoyub, biz hansı vəhşilərlə üz-üzə idik, biz hansı vəhşiləri məğlub etmişik. Bütün dünya bunu görməlidir.

Bir dənə də salamat bina yoxdur, hamısını dağıdıblar. Evlərimizi, kəndlərimizi dağıdıblar, torpaqlarımızdan istifadə ediblər. Bütün hərbi cinayətlərə görə düşmən cavab verəcək. Biz Ağdam şəhərinə də jurnalistləri, o cümlədən xarici jurnalistləri, diplomatik korpusun nümayəndələrini dəvət edəcəyik. Qoy, gəlsinlər, görsünlər.

*Ardı 2-ci səh.*

# İLHAM ƏLİYEV 27 ildən sonra









Əvvəli 1-ci səh.

Dövlət başçısı Ağdamda Azərbaycanın üçrəngli bayrağını qaldırdı. İyirmi yeddi ildən sonra işğaldan azad olunan Ağdamda indi dövlət bayrağımız qürurla dalğalanır. Bu görüntüləri hər bir azərbaycanlı fəxrlə və böyük sevinclə izləyir.

Bir vaxtlar qaynar həyatın olduğu, əməksevər insanların qurub-yaratdıqları abad şəhərdən əsər-əlamət qalmayıb. Erməni işğalçılar xislətlərinə uyğun olaraq Ağdamın ağ damlarını xarabalığa çeviriblər, şəhəri darmadağın ediblər.

Sonra dövlət başçısı və birinci xanım Ağdam məscidini ziyarət etdilər. Xocalı soyqırımında sağ qalan xocalılıların ümid, pənah yerinə çevrilən qoşa minarəli məscid də yırtıcı düşmən tərəfindən vəhşicəsinə dağıdılıb.

Prezident İlham Əliyev Məkkədən gətirdiyi "Qurani-Kərim"i Ağdam məscidinə bağışladı.

Azərbaycan Prezidenti və birinci xanım məsciddə dua etdilər.

Dövlət başçısı Ağdam məscidinin qarşısında çıxış etdi.



# Ağdamda da Azərbaycan bayrağını ucaltdı!







## Prezident İlham Əliyevin çıxışı

- Əziz həmvətənlər.

Bildiyiniz kimi, noyabrın 20-də Ağdam şəhəri və Ağdam rayonunun işğal altında olan hissəsi işğaldan azad edilib. Bu münasibətlə mən Azərbaycan xalqını təbrik etmişdim, ağdamlıları təbrik etmişdim. Bu gün mən buradayam, Ağdam şəhərindəyəm. Ağdam məscidini ziyarət etmişəm, Azərbaycanın Dövlət Bayrağını qaldırmışam. Biz Ağdama qayıtmışıq. Bütün ağdamlıları bu tarixi hadisə münasibətilə bir daha təbrik etmək istəyirəm. Bilirəm ki, ağdamlılar bu günü uzun illər ərzində səbirsizliklə gözləyiblər. Həm işğal dövründə - 30 ilə yaxın müddət ərzində, eyni zamanda, İkinci Qarabağ müharibəsi, Vətən müharibəsi dövründə gözləyirdilər ki, Ağdam işğaldan nə vaxt azad ediləcək. Biz öz tarixi missiyamızı şərəflə yerinə yetirdik, işğal olunmuş torpaqları düşməndən azad etdik. Döyüş meydanında əldə edilən qələbə imkan verdi ki, Ağdam rayonu, eyni zamanda, Kəlbəcər və Laçın rayonları bir güllə atmadan, bir şəhid vermədən işğaldan azad edilsin.

Biz bu torpaqlara Azərbaycan xalqının, şəhidlərimizin canı, qanı bahasına, qəhrəmanlarımızın şücaəti hesabına qayıtmışıq. Biz güc toplamalı idik və toplayırdıq. Mən son 17 il ərzində xalqa müraciət edərkən dəfələrlə deyirdim ki, biz daha güclü olmalıyıq, daha qüdrətli ordu qurmalıyıq. Bu gün dünyada güc amili həlledici rol oynayır. Haqq-ədalət bizim tərəfimizdədir, beynəlxalq hüquq bizim tərəfimizdədir, güc də bizim tərəfimizdə olmalıdır. Məhz gücümüzün yetərli dərəcədə olmaması nəticəsində Azərbaycan 1990-cı illərin əvvəllərində işğala məruz qalmışdır. Biz güc toplayırdıq, güclənirdik. Mən deyirdim ki, hər gün hər bir Azərbaycan vətəndaşı bu müqəddəs günü, bu zəfər gününü öz əməyi, zəhməti, Vətənə olan sədaqəti ilə yaxınlaşdırmalıdır.

Biz beynəlxalq müstəvidə böyük işlər apardıq və mən öz çıxışlarımda xalqa bu barədə kifayət qədər məlumat vermişdim. Bu gün, müharibə başa çatandan sonra və hətta müharibə dövründə bütün dünya, bütün Azərbaycan xalqı gördü ki, bunun nə qədər böyük əhəmiyyəti var idi. Əgər biz münaqişənin həlli üçün lazımi hüquqi baza yaratmasaydıq, bu gün problemlərlə üzləşə bilərdik. Biz bütün beynəlxalq təşkilatlarda ədaləti, beynəlxalq hüququ tanıyan, əks etdirən qərar və qətnamələr qəbul etdirdik. BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsi 1993-cü ildə qəbul edilmişdir. Amma ondan sonra biz BMT Baş Assambleyasının qətnamələrini, İslam Əməkdaşlıq Təşkilatının qətnamələrini, Qoşulmama Hərəkatının, Avropa Parlamentinin, Avropa Şurası Parlament Assambleyasının qərar, qətnamələrini qəbul etdirərək münaqişənin həlli üçün çox möhkəm hüquqi baza yaratdıq. 2003-cü ildən bu günə qədər bütün bu lazımi addımlar atıldı və biz siyasi müstəvidə qələbə qazandıq. Eyni zamanda, iki il bundan əvvəl Avropa İttifaqı ilə Azərbaycan arasında paraflanmış "Tərəfdaşlıq prioritetləri" sənədində də Azərbaycanın suverenliyi, ərazi bütövlüyü və sərhədlərimizin toxunulmazlığı haqqında açıq ifadələr var. Bu, bizim böyük uğurumuzdur. Çünki uzun illər ərzində biz buna nail ola bilməmişdik. Bəzi beynəlxalq təşkilatlar işğalçını öz adı ilə çağırmaq istəmirdilər. Bəzi beynəlxalq təşkilatlar işğalla bağlı qəbul edilmiş sənədlərdə işğalçının kim olduğunu göstərmək istəmirdilər. Hətta BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsində Ermənistan işğalçı dövlət kimi göstərilmədi. Orada "erməni qüvvələri" yazılmışdı.



Biz son 17 il ərzində münaqişənin həlli üçün hüquqi baza yaratdıq. Mən bütün beynəlxalq təmaslarımda Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı Azərbaycanın mövqeyini, tarixi həqiqətləri və mövcud vəziyyəti bütün həmkarlarıma çatdırmışdım. Mənim, demək olar ki, bütün ikitərəfli beynəlxalq təmaslarımda Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi xüsusi yer alır. Mənim bütün çıxışlarıma baxmaq kifayətdir. Son 17 il ərzində, demək olar ki, bütün çıxışlarımda bu məsələ ilə bağlı öz fikrimi bildirmişdim, dünya ictimaiyyətini məlumatlandırmışdım. Çünki əfsuslar olsun ki, 1990-cı illərin əvvəllərində münaqişə ilə bağlı dünyada dolğun təsəvvür yox idi, təhrif edilmiş məlumat var idi. Erməni lobbisi tərəfindən ortalığa atılmış məlumat var idi. Əks-təqdirdə, bizim torpaqlarımız işğal altına düşə-düşə Amerika Konqresi məşhur 907-ci düzəlişi qəbul etməzdi. Azərbaycan torpaqları işğal altına düşürdü, ancaq Amerika Konqresi Azərbaycanı təcavüzkar kimi tanımışdır və bizi humanitar yardımdan məhrum etmişdir. O vaxt erməni lobbisi buna nail oldu. Azərbaycan diplomatiyası, sadəcə olaraq, onların qarşısında adekvat addım ata bilməmişdir.

Biz informasiya müharibəsində qələbə qazandıq. Biz Xocalı soyqırımı haqqında dünyaya dolğun məlumat verdik. Xocalı soyqırımı haqqında dünyada məlumat yox idi. "Xocalıya ədalət!" kampaniyası, 10-dan çox ölkə tərəfindən Xocalı soyqırımının soyqırımı kimi tanınması, demək olar ki, münaqişə ilə bağlı həqiqəti əks etdirən mənzərəni yaratdı və dünya ictimaiyyətinə çatdırdı.

Biz - Qoşulmama Hərəkatına sədrlik edən ölkə, BMT-dən sonra ikinci böyük təsisat olan Qoşulmama Hərəkatına sədrlik etdiyimiz dövrdə də bu məsələni diqqət mərkəzində saxlamışıq.

*Ardı 4-cü səh.*

# İLHAM ƏLİYEV 27 ildən sonra









*Əvvəli 3-cü səh.*

Bu gün 120 ölkəni birləşdirən təşkilata Azərbaycan sədrlik edir. Keçən il Zirvə görüşü keçirilmişdir. Bu gün Azərbaycan xalqı bir daha görür ki, bunun nə qədər böyük önəmi var idi. Çünki İkinci Qarabağ müharibəsi dövründə BMT-də, BMT Təhlükəsizlik Şurası tərəfindən yeni qətnamənin qəbul edilməsi cəhdləri də baş vermişdir. O qətnamə qəbul edilsəydi, əlbəttə ki, bizi dayandıra bilməzdi, ancaq lazım olmayan bir mənzərə yarada bilərdi. Məhz Qoşulmama Hərəkatına üzv ölkələr o qətnamənin qəbul olunmasına imkan vermədilər, bizi dəstəklədilər. Mən də onlara təşəkkürümü bildirdim və demişdim ki, onlar bizim arxamızda kişi kimi durdular. Baxmayaraq ki, böyük dövlətlər onlara böyük təzyiqlər göstərirdi. Qoşulmama Hərəkatının bir çox üzvləri Azərbaycanı həm müstəqil, həm güclü, həm də onları müdafiə etməyə hazır olan ölkə kimi tanıyır. Biz pandemiya dövründə 30-dan çox ölkəyə humanitar maliyyə yardımı göstərmişik, o cümlədən Ümumdünya Səhiyyə Təşkilatının xətti ilə Qoşulmama Hərəkatına xüsusi bir yardım göstərmişik. Görülmüş bütün bu işlər səmərəsini verdi. Biz bizim üçün əsas məsələ olan Ermənistan-Azərbaycan Dağlıq Qarabağ məsələsində lazımi beynəlxalq dəstəyi ala bildik.

Biz bu gün təkcə Qoşulmama Hərəkatına yox, eyni zamanda, Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasına da sədrlik edirik. Bizim beynəlxalq nüfuzumuz kifayət qədər yüksəkdir və bu, münaqişənin həlli üçün xüsusi rol oynamışdır.

Mən bu 17 il ərzində daim deyirdim ki, biz iqtisadi sahəyə güclü təkan verməliyik, iqtisadi müstəqilliyimizi təmin etməliyik və təmin etdik. Bu gün biz iqtisadi cəhətdən heç kimdən asılı deyilik. Asılı olsaydıq, bizə təzyiqlər edilə bilərdi. Onsuz da edilmişdi, ancaq onların heç bir səmərəsi olmadı. Çünki bizə qarşı iqtisadi amildən istifadə etmək mənasızdır. Biz heç kimdən asılı deyilik, hansısa ölkədən, hansısa beynəlxalq maliyyə qurumundan asılı deyilik. Əksinə, biz özümüz indi donor ölkəyik, biz özümüz indi kreditlər veririk. Bizim kifayət qədər güclü iqtisadi potensialımız və maliyyə resurslarımız imkan verdi ki, iqtisadi müstəqilliyi tam təmin edək. Bu da qələbənin əldə edilməsində xüsusi rol oynayırdı. Çünki əgər biz iqtisadi cəhətdən müstəqil olmasaydıq, biz siyasi müstəqillik əldə edə bilməzdik. Siyasi müstəqillik olmadan torpaqlarımızı düşməndən azad edə bilməzdik. O düşməndən ki, onların arxasında böyük dövlətlər, o dövlətlərin çox nüfuzlu dairələri, erməni lobbi təşkilatları dayanır.

Bu amillər gücümüzü artırdı, qələbəmizi şərtləndirdi. O amillərin arasında birinci nömrəli məsələ hərbi gücümüzdür. Mən dəfələrlə demişdim ki, bizim üçün hərbi gücümüzün möhkəmləndirilməsi birinci məsələdir. Təsadüfi deyil ki, mənim prezidentlik dövrümdə bizim hərbi xərclərimiz hər il büdcə xərcləri arasında birinci yerdə idi. Mən deyirdim və ya vətəndaşlara izah edirdim ki, bəli, bizim çoxlu başqa məsələlərimiz var, həllini gözləyən problemlər var. Ancaq bizim əsas problemimiz torpaqlarımızın işğal altında olmasıdır. Ona görə bizim xərclərimiz arasında birinci yerdə hərbi xərclər dayanır. Biz lazım olan texnikanı aldıq. Bu texnikanı, müasir silahları Azadlıq meydanında dəfələrlə keçirilmiş paradlarda nümayiş etdirirdik. Biz ordumuzu inkişaf etdirərkən ən qabaqcıl meyilləri nəzərdən keçirmişdik. Biz o silahları alırdıq ki, bu silahlar bizim üstünlüyümüzü təmin etsin və İkinci Qarabağ müharibəsi bunu göstərdi.

Bu gün bir çox ölkələrdə, inkişaf etmiş ölkələrdə bizim təcrübəmiz öyrənilir. Bu gün bu məsələ ilə məşğul olan bir çox ekspertlər qeyd edirlər ki, Azərbaycan XXI əsrin müharibəsini aparıb. XXI əsrdə ilk dəfə olaraq bu miqyasda və bu səmərə ilə qısa müddət ərzində tarixi nailiyyətlər əldə edilib. İndi buraya gələrkən mən ən azı üç müdafiə xəttini gördüm. Amma mənə hərbçilər tərəfindən verilən məlumata görə, beş müdafiə xətti var. Füzulidə də, həmçinin. Biz bu əsgər və zabitlərimizin qəhrəmanlığı, peşəkarlığı sayəsində müdafiə xəttini yarmışıq. Biz texniki cəhətdən ən müasir silahlarla təchiz edilmişik və İkinci Qarabağ müharibəsi bunu göstərdi, o videogörüntülər var. İndi onlar bir çox ölkələrdə öyrənilir və öyrəniləcək, hərbi kitablara salınacaq.

Eyni zamanda, biz ordumuzun döyüş potensialını gücləndirirdik. Çünki tam aydın idi ki, təkcə silahlarla qələbə qazanmaq mümkün deyil. Bayrağı qaldıran, bayrağı düşmənin mövqeyinə sancan, azad edilmiş torpaqlara sancan əsgərdir, zabitdir. Bizim əsgər və zabitlərimiz aslan kimi vuruşdular. Şəhidlər verdik. Allah bütün şəhidlərimizə rəhmət eləsin! Onların valideynlərinə Allah səbir versin! Yaralı hərbçilərimiz var, onlar da sağalırlar. Onların bir çoxu artıq sağalıb. Allah onlara şəfa versin! Biz qəhrəman əsgər və zabitlərimiz hesabına qələbə qazanmışıq. Təkcə Şuşanın işğaldan azad edilməsi əməliyyatı, əminəm ki, tarixdə əbədi qalacaq. Demək olar ki, yüngül silahlarla dərədən, meşələrdən, dağlardan keçərək əlbəyaxa döyüşdə düşməni məhv etdik, Qarabağın tacı olan Şuşanı azad etdik.

# Ağdamda da Azərbaycan bayrağını ucaltdı!



Bax, bütün bu amillər bizim qələbəmizi şərtləndirdi. Mən bir daha qeyd etmək istəyirəm ki, ağdamlılar bu günü uzun illər ərzində - 30 ilə yaxın idi gözləyirdilər. Eyni zamanda, İkinci Qarabağ müharibəsi zamanı da gözləyirdilər. Mən bilirəm və hiss edirəm ki, bizim şəhərlərimiz, rayonlarımız, kəndlərimiz işğaldan azad olunduqca ağdamlılar da fikirləşirdilər ki, nə vaxt onların kəndləri, Ağdam şəhəri azad olunacaq. Cəbrayıl azad olundu, Füzuli azad olundu, Hadrut azad olundu, Zəngilan, Qubadlı, Suqovuşan, Şuşa azad olundu və yəqin ki, ağdamlılar fikirləşirdilər ki, nə üçün Ağdam azad olunmur? İndi mən bunu deyə bilərəm. Amma mən istəyirdim, bunu hansısa formada ağdamlılara çatdırım, amma onlar da başa düşürlər ki, müharibə dövründə bunu edə bilməzdim. Burada beş müdafiə xətti var. Düşmən bizi buradan gözləyirdi. Biz imkan verə bilməzdik ki, düşmənin gözlədiyi yerdən hücuma keçək. Biz bu istiqamətdə kifayət qədər böyük hərbi birləşmə saxlamışdıq ki, düşmənin hərbi qüvvələri də burada qalsın, başqa yerə getməsin. Füzulini, Hadrutu, Xocavənd rayonunun böyük hissəsini və Şuşanı azad edəndən sonra təbii ki, biz artıq Ağdam şəhərinə istiqamət götürmüşdük və əmr verilmişdi ki, növbəti istiqamət Ağdamdır. Düşmən də bilir və artıq etiraf edir ki, əgər onlar torpaqlarımızın azad edilməsi ilə bağlı mənim şərtlərimi qəbul etməsəydilər, burada məhv olacaqdılar. Çünki biz Ağdama gəlirdik.

Müharibənin bütün sirlərini açmaq hələ ki tezdir. Vaxt gələcək çox maraqlı məsələlər üzə çıxacaq. Ancaq bu gün tam rahat deyə bilərəm ki, Ağdam əməliyyatı planlaşdırılırdı. Biz Ağdamı onsuz da alacaqdıq. Amma itkilər olacaqdı, özü də böyük sayda. Ona görə Şuşanı və noyabrın 9-da 70-dən çox kəndimizi azad edəndən sonra düşmənin beli qırıldı, təslim oldu, ağ bayraq qaldırdı, mənim şərtlərimə əməl etdi və öz məğlubiyyətini etiraf etdi.

Mən, demək olar ki, müharibənin ilk günlərindən çoxsaylı müsahibələrimdə və xalqa müraciətlərimdə demişdim ki, - bütün bunları qaldırmaq olar, hər şey sənədləşdirilib, - bizə tarix versin. Dedim, Paşinyan, sən özün, sənin xarici işlər nazirin, yaxud müdafiə nazirin yox, hansılar ki, bu məğlubiyyətə görə işdən qovuldular, sən özün, Paşinyan, bizə tarix verməlisən, özün deməlisən və buna nail oldum.

Əgər mənim sözümə qulaq assaydı, indi belə rəzil durumda olmazdı. Tam qətiyyətlə deyə bilərəm, biz işğal olunmuş torpaqlarımızı onsuz da azad edəcəkdik. Ancaq düşmən hesab edirdi ki, ona kimsə kömək edəcək. Hesab edirdi ki, onun bütün havadarları gəlib onun yerinə bizimlə vuruşacaq. Səhv etdi, böyük səhv etdi. Füzuli, Cəbrayıl, Hadrut, Zəngilan, Qubadlı, Şuşa, Suqovuşan, Xocavənd rayonunun böyük hissəsi döyüş meydanında işğaldan azad olunandan sonra düşmən diz çökdü və bu gün diz üstədir. Biz düşmənin belini qırdıq, biz şanlı Qələbə qazandıq. Biz bütün dünyaya sübut etdik ki, onların əfsanələri, onların mifləri hamısı boş şeydir. On mindən çox fərari var Ermənistan ordusunda və daha da çox olacaqdı. Əgər biz Ağdama planlaşdırdığımız əməliyyatı həyata keçirsəydik, bax, burada minlərlə erməni hərbçisi ya fərari olacaqdı, ya da məhv olacaqdı. Biz göstərdik ki, döyüşkən xalq Azərbaycan xalqıdır. Biz göstərdik ki, heç vaxt bu işğalla barışmayacağıq. Açsınlar baxsınlar mənim çıxışlarıma, mən son 17 il ərzində bəlkə də min dəfə demişəm, biz bu işğalla barışmayacağıq. Hesab edirdilər ki, bizim torpaqlarımızı işğal altında əbədi saxlayacaqlar. Çünki bu qədər xərc qoyan, burada, Füzulidə, Cəbrayılda bu qədər istehkam quranlar onu da istəyirdilər. Cəbrayıl rayonunun Soltanlı kəndi uğrunda bir neçə gün şiddətli döyüşlər gedirdi. Orada elə istehkamlar qurmuşdular ki, bəlkə də heç dünyada belə istehkamlar olmayıb. Nə üçün? Çıxmaq istəmirdilər. Hesab edirdilər ki, orada əbədi oturacaqlar. Erməniləşdirmək istəyirdilər. Bax, bütün Ağdam şəhəri dağıdılıb. Oranı onlar 1990-cı illərdə dağıdıblar ki, əgər sülh müqaviləsi imzalansa, Azərbaycan xalqı gəlib burada yaşaya bilməsin. Hər tərəf minalanıb. Ən çox minalar məhz buradadır. Amma səhv etdilər. Biz bütün bu illər ərzində bir amalla, bir arzu ilə yaşamışıq ki, bu torpaqlara qayıdaq və qayıtmışıq. Ermənistan ordusunu məhv etmişik. Ermənistan ordusu, demək olar ki, yoxdur. Hərbi cinayətkarları məhv etmişik, onların tör-töküntülərini məhv etmişik. Mən Füzuli şəhərində demişəm, bir daha demək istəyirəm, biz Koçaryan, Sarkisyan ordusunu məhv etmişik. Biz Koçaryana, Sarkisyana qarşı qüdrətimizi göstərmişik. Biz onları məğlub etmişik. Paşinyan kimdir, mən indi onun haqqında danışmaq istəmirəm, nə lazımsa demişəm. Koçaryan, Sarkisyan, siz diz çökdünüz bizim qabağımızda, siz buranı, işğal edilmiş bütün torpaqları bax, bu günə saldınız.

*Ardı 6-cı səh.*





# İLHAM ƏLİYEV 27 ildən sonra Ağdamda da Azərbaycan bayrağını ucaltdı!



*Əvvəli 5-ci səh.*

Siz bu məscidi dağıtdınız. İkinci Qarabağ müharibəsi dövründə qaçıb gizləndilər. Döyüş bölgəsinə burunlarını da belə soxa bilmədilər. Bəs, haradadır sizin qəhrəmanlığınız? Dedim ki, çıxarın dəmir-dümürləri, onun qiyməti yoxdur. Qəhrəman ordenləri taxmısınız döşünüzə. Yalançı qəhrəmandırlar bunlar. Bax, mən burada durmuşam, dağıtdığınız məscidin önündə, dağıtdığınız Ağdam şəhərində, öz ordumla buraya gəlmişəm. Qalib kimi gəlmişəm. Siz isə öz miskin həyatınızın sonuna qədər məğlub edilmiş, qorxaq damğası ilə yaşayacaqsınız. Nə gizlənirsiniz orada siçan kimi?! Koçaryan, Sarkisyan, mən sizə deyirəm. Paşinyan heç kimdir. İndi onun dərdi, azarı hakimiyyətdə qalmaqdır. Buna görə də bütün müxalifəti tutdurur. Qərb də susur buna, susur, ağzına su alıb. Görmür ki, nələr baş verir orada?! Hərbi cinayətkarlar, Xocalı qatilləri, sizi məhv etmişik. Azərbaycan əsgəri, Azərbaycan zabiti sizi məhv edib. Əcəb də eləyib!

Bu gün Ağdam şəhərini dağılmış vəziyyətdə görmək çox ağrılıdır. Amma mən bir neçə il bundan əvvəl bu bölgədə olarkən, bizim səngərlərdə olarkən, o binanı binoklla görmüşəm. Bu hissləri sözlə ifadə etmək çətindir, mümkün deyil. Öz torpağımızda öz şəhərimizi, bax, o binanı binoklla uzaqdan görmək, buraya gələ bilməmək nə qədər ağrılı idi. Dəfələrlə təmas xəttində olarkən, səngərlərdə olarkən, fikirləşirdim ki, gün gələcək biz qayıdacağıq, biz öz ərazi bütövlüyümüzü bərpa edəcəyik.

Bu gün mən Ağdam məscidinə Məkkədən gətirdiyim "Qurani-Kərim"i bağışladım. Mən xoşbəxt adamam ki, dörd dəfə Məkkə ziyarətində olmuşam. Bir dəfə rəhmətlik atamla, üç dəfə isə Prezident kimi. Xoşbəxtəm ki, mən ailə üzvlərimlə bərabər müqəddəs Kəbənin içində dualar etmişəm. Hər bir insanın ürəyində nə varsa, mənim ürəyimdə də eyni duyğulardır. Etdiyim duaların arasında birinci duam torpaqlarımızın işğaldan azad edilməsi idi. Allahdan xahiş edirdim, mənə güc versin ki, biz torpaqları işğalçılardan azad edək, o xoşbəxtliyi bizə nəsib etsin, biz yenə də dədə-baba torpağımıza qayıdaq.

Bu gün burada, vandallar tərəfindən dağılmış məscidin önündə deyirəm ki, xoşbəxt adamam. Bir daha Allaha şükür edirəm ki, mənim dualarımı eşidib, bu gücü mənə verib. Biz gücümüzü səfərbər edərək bax, bu tarixi günləri yaşayırıq. Bu, həqiqətən də tarixi günlərdir. Bəlkə də çoxəsrlik Azərbaycan tarixində buna bənzər şərəfli və qürurlu günlər olmayıb. Biz bunu birliyimiz sayəsində qazanmışıq, gücümüz sayəsində qazanmışıq. Heç kim bizə kömək etməyib. Əksinə, ancaq maneçilik törədib. Gün gələcək bu barədə də ətraflı danışacağam.

Bu 44 gün ərzində bizə mənəvi və siyasi dəstək verən Türkiyə Cümhuriyyəti olub, mənim qardaşım Prezident Rəcəb Tayyib Ərdoğan olub və bir neçə digər müsəlman və qeyri-müsəlman ölkələrin rəhbərləri olub. Biz bu Qələbəni birlik, əzm, iradə və güc hesabına əldə etdik. Bu gün, müharibə başa çatandan sonra artıq Qərb dairələrindən bəzi Qərb liderləri məsələ qaldırırlar ki, bəs, Azərbaycanın nəzarətinə keçən azad edilmiş torpaqlarda xristian məbədləri necə olacaq? Həm mənimlə söhbət zamanı, həm rəsmi bəyanatlarda narahatlıq ifadə edirlər. Heç kim narahat olmasın, xüsusilə Qərb dövlətlərinin liderləri, hansılar ki, islamofob hissləri alovlandırırlar. Hansılar ki, islam müqəddəslərinin təhqirlərinə göz yumurlar və hətta onları təhqir edənlərə bəraət qazandırırlar. Onların haqqı yoxdur bu barədə danışmağa, bu, birincisi. İkincisi, bizim ərazimizdə olan bütün məbədlər tarixi sərvətimizdir. Azərbaycanda hər il Bakı Humanitar Forumu, ya da ki, Mədəniyyətlərarası Dialoq Forumu keçirilir. Azərbaycanda dünya dini liderlərinin Zirvə görüşləri keçirilib. Baxın, görün, nələr deyilib bizim haqqımızda. İslam Əməkdaşlıq Təşkilatı Azərbaycanda islam dininə olan münasibəti örnək kimi göstərir. Rusiya Pravoslav Kilsəsinin patriarxı Kiril Bakıda olarkən Azərbaycanda bu sahədə görülmüş işlərə yüksək qiymət verib, Pravoslav kilsələrində olub. Roma Papası Fransisk Bakıda olarkən rəsmi çıxışında Azərbaycanda tolerantlıq, dini dözümlülük, multikulturalizm haqqında danışıb. Kim bizə irad tuta bilər? Məscidləri bağlayan? Yaxud da ki, müsəlman məscidlərinə öldürülmüş donuzların başlarını atan bizə dərs deyəcək, narahatlıq ifadə edəcək? Bizə heç bir narahatlıq ifadə etmək lazım deyil. Bizim bütün tarixi abidələrimiz dövlət tərəfindən qorunur. Mənim göstərişimlə və dövlət vəsaiti hesabına hazırda iki pravoslav kilsəsi təmir edilir, üçüncü kilsə isə təmir olunub. İnzibati bina tikilir. Müharibə dövründə udi qardaşlarımızın kilsəsi Heydər Əliyev Fondu tərəfindən təmir olunaraq istifadəyə verilib. Bizim Qafqaz Albaniyası kilsələri milli sərvətimizdir. Gürcü kilsələrimiz, erməni kilsəsi. Vəhşi düşmən bax, bu məsciddə inək saxlayıb, donuz saxlayıb. Bu şəkillər var internetdə. Azad edilmiş Zəngilan məscidində, Cəbrayıl məscidində donuz saxlayıb.



Biz UNESCO ilə çox sıx əməkdaşlıq edirik. Amma gəlib xristian məbədlərinə baş çəkmək istəsə, buraya gəlsin. Gəlsin və desin vəhşi erməni neyləyib burada. Bir də ki, bir neçə il bundan əvvəl Minsk qrupunun həmsədr ölkələrinin səfirləri bu məsciddə, burada olublar. Onlar iki dəfə faktaraşdırıcı missiyalar keçiriblər və mənə deyiblər ki, Ağdam məscidində olublar. Niyə məsələ qaldırmayıblar? Niyə bu, bəzi Qərb liderlərində narahatlıq yaratmayıb? Deməli, müsəlman məscidlərini təhqir etmək olar, inək, donuz saxlamaq olar, dağıtmaq olar. Belədirsə, belə də desinlər və getsinlər öz ölkələrində problemlərlə məşğul olsunlar, bizim işimizə burunlarını soxmasınlar. Heç kim bizim işimizə qarışmasın. Biz özümüz gəlmişik buraya. Bütün o ölkələrin səylərinə rəğmən gəlmişik, bütün təxribatlara rəğmən gəlmişik, qan tökə-tökə gəlmişik və durmuşuq bizim torpağımızda. Hərə getsin öz işi ilə məşğul olsun. Bizim işimizə qarışmaq istəyənin cavabını vermişik və verəcəyik.

Bu gün tarixi bir gündür. Biz şanlı Qələbəmizi qeyd edirik. Dağılmış Ağdam şəhəri erməni vəhşiliyinin şahididir. Biz Ağdam şəhərini bərpa edəcəyik, bütün kəndləri bərpa edəcəyik. Heç kimdə bu haqda şübhə olmasın. Bu, böyük iş olacaqdır. Əlbəttə ki, böyük zəhmət tələb edəcək. Amma necə ki, biz 44 gün ərzində birlik göstərmişik, əminəm ki, azad edilmiş torpaqlarımızın bərpası işində də birlik, əzmkarlıq göstərəcəyik. Bütün şəhərlərimizi bərpa edəcəyik, daha da gözəl şəhərlər olacaqdır. Şəhərlərimizdə qalan tarixi abidələri bərpa edəcəyik və bir daha gücümüzü göstərəcəyik.

Biz Qələbəmizi dəmir yumruq hesabına, düşməni qova-qova qazanmışıq və indi durmuşuq öz torpağımızda.

Eşq olsun Azərbaycan xalqına! Eşq olsun Azərbaycan əsgərinə, Azərbaycan zabitinə! Ağdam bizimdir! Qarabağ Azərbaycandır!

❖ ❖ ❖

Ağdamdan qayıdarkən Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva dağıdılmış şəhəri avtomobildən seyr etdilər.

**Birinci xanım Mehriban Əliyeva:** Bir dənə də dağıdılmamış bina yoxdur.

**Prezident İlham Əliyev:** Qaldırdığım bayraq. Eşq olsun!













# Üçtərəfli Bəyanatın bəndlərinin yerinə yetirilməsi ilə bağlı məsələlər müzakirə edilib

Noyabrın 24-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ilə Rusiya Federasiyasının Prezidenti Vladimir Putin arasında telefon danışığı olub.

Telefon danışığı zamanı Azərbaycan Respublikası Prezidentinin, Rusiya Federasiyası Prezidentinin və Ermənistanın baş nazirinin 10 noyabr tarixli birgə Bəyanatının bəndlərinin yerinə yetirilməsi ilə bağlı məsələlər müzakirə edilib, davamlı atəşkəs rejimindən, Rusiya sülhməramlı missiyasının rəhbərliyi ilə Azərbaycanın müvafiq strukturlarının rəhbərliyi arasında sıx əlaqələrin yaradılmasından məmnunluq bildirilib.

Dövlət başçıları, həmçinin azərbaycanlı və erməni əhaliyə humanitar yardım göstərilməsi məsələlərini müzakirə ediblər. Söhbətin gedişində 10 noyabr tarixli birgə Bəyanatın bəndlərinə müvafiq olaraq nəqliyyat infrastrukturunun inşası və nəqliyyat kommunikasiyalarının açılması məsələləri müzakirə edilib. Regionda uzunmüddətli sülhün təmin ediləcəyinə əminlik bildirilib.

***Prezidentin Mətbuat Xidməti***

# Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində məsələlərin mərkəzləşdirilmiş qaydada həlli ilə bağlı Əlaqələndirmə Qərargahının yaradılması haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Azərbaycan Respublikası Prezidentinin, Ermənistan Respublikası Baş nazirinin və Rusiya Federasiyası Prezidentinin 2020-ci il noyabrın 10-da imzaladıqları Bəyanatda nəzərdə tutulmuş müddəaların icrasından irəli gələn, habelə Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində sosial-iqtisadi, humanitar, təşkilati və digər təxirəsalınmaz məsələlərin həlli, eləcə də bu sahədə fəaliyyətin əlaqələndirilməsi məqsədilə aşağıdakı tərkibdə Əlaqələndirmə Qərargahı (bundan sonra - Qərargah) yaradılsın:

**Qərargahın rəhbəri**

Samir Nuriyev - Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbəri

**Qərargahın üzvləri**

Zeynal Nağdəliyev - Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Ərazi-təşkilat məsələləri şöbəsinin müdiri

Şahmar Mövsümov - Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Azərbaycan Respublikası Prezidenti Administrasiyasının İqtisadi məsələlər və innovativ inkişaf siyasəti şöbəsinin müdiri

Hikmət Hacıyev - Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri

Fuad Ələsgərov - Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Hüquq mühafizə orqanları ilə iş şöbəsinin müdiri

Anar Ələkbərov - Azərbaycan Respublikası Prezidentinin köməkçisi

Gündüz Kərimov - Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Qanunvericilik və hüquq siyasəti şöbəsinin müdiri, Azərbaycan Respublikasının Birinci vitse-prezidentinin köməkçisi

Elçin Əmirbəyov - Azərbaycan Respublikasının Birinci vitse-prezidentinin köməkçisi

Xalid Əhədov - Azərbaycan Respublikasının Birinci vitse-prezidentinin köməkçisi

Emin Hüseynov - Azərbaycan Respublikasının Birinci vitse-prezidentinin köməkçisi

Kamran Əliyev - Azərbaycan Respublikasının Baş prokuroru

Vilayət Eyvazov - Azərbaycan Respublikasının daxili işlər naziri

Muxtar Babayev - Azərbaycan Respublikasının ekologiya və təbii sərvətlər naziri

Fikrət Məmmədov - Azərbaycan Respublikasının ədliyyə naziri

Sahil Babayev - Azərbaycan Respublikasının əmək və əhalinin sosial müdafiəsi naziri

Kəmaləddin Heydərov - Azərbaycan Respublikasının fövqəladə hallar naziri

Ceyhun Bayramov - Azərbaycan Respublikasının xarici işlər naziri

Mikayıl Cabbarov - Azərbaycan Respublikasının iqtisadiyyat naziri

İnam Kərimov - Azərbaycan Respublikasının kənd təsərrüfatı naziri

Samir Şərifov - Azərbaycan Respublikasının maliyyə naziri

Zakir Həsənov - Azərbaycan Respublikasının müdafiə naziri

Ramin Quluzadə - Azərbaycan Respublikasının nəqliyyat, rabitə və yüksək texnologiyalar naziri

Oqtay Şirəliyev - Azərbaycan Respublikasının səhiyyə naziri

Emin Əmrullayev - Azərbaycan Respublikasının təhsil naziri

Anar Quliyev - Azərbaycan Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədri

Rövşən Rzayev - Azərbaycan Respublikasının Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri

Elçin Quliyev - Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidmətinin rəisi

Əli Nağıyev - Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidmətinin rəisi

Orxan Sultanov - Azərbaycan Respublikasının Xarici Kəşfiyyat Xidmətinin rəisi

Anar Kərimov - Azərbaycan Respublikasının mədəniyyət nazirinin birinci müavini

Rəşad Nəbiyev - "Azərkosmos" Açıq Səhmdar Cəmiyyətinin sədri

2. Qərargahın nəzdində katiblik və kommunikasiya funksiyasının yerinə yetirilməsi və zəruri analitik-təşkilati dəstək göstərilməsi məqsədilə İdarələrarası Mərkəz yaradılsın.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 24 noyabr 2020-ci il*

# Bərdə-Ağdam dəmir yolu xəttinin layihələndirilməsi və tikintisi ilə bağlı tədbirlər haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

2020-ci il sentyabrın 27-də başlanmış Vətən müharibəsi Azərbaycan xalqının tarixi Qələbəsi ilə başa çatmış, Ağdam rayonunun erməni təcavüzünə məruz qalmış bütün əraziləri də işğaldan azad edilmişdir.

Rayonun 27 il ərzində işğal altında saxlanılmış ərazilərində, Ağdam şəhəri də daxil olmaqla bütün yaşayış məntəqələri, o cümlədən həyati vacib təsərrüfat sahələri, yaşayış evləri tamamilə dağıdılmış, ətraf mühitə, tarixi-mədəniyyət və dini abidələrə ciddi ziyan vurulmuşdur.

Ağdam rayonunun işğal altında olmayan 44 yaşayış məntəqəsində son illərdə müxtəlif dövlət proqramları çərçivəsində geniş tikinti-bərpa və abadlıq-quruculuq işləri görülmüş, Olimpiya İdman Kompleksi, Muğam Mərkəzi, Mərkəzi Rayon Xəstəxanası və digər sosialyönümlü obyektlər tikilmiş, Ağdam Dövlət Dram Teatrının binası əsaslı təmir olunmuş, xalçaçılıq müəssisəsi yaradılmışdır. 6600-dən çox məcburi köçkün ailəsi üçün salınmış 18 yeni qəsəbədə 18 ümumtəhsil və 3 musiqi məktəbi, 12 tibb və 10 məktəbəqədər təhsil müəssisəsi inşa edilmiş, qaz, elektrik, içməli su xətləri çəkilmiş, yol-nəqliyyat infrastrukturu yaxşılaşdırılmış, digər mühüm layihələr həyata keçirilmişdir.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq bu istiqamətdə aparılan işlərin davam etdirilməsi, işğaldan azad olunmuş ərazilərin bərpası və Ağdam rayonunun dayanıqlı sosial-iqtisadi inkişafının təmin edilməsi məqsədilə **qərara alıram:**

1. Ümumi uzunluğu 45,0 kilometr olan Bərdə-Ağdam dəmir yolu xəttinin layihələndirilməsi və tikintisi üçün Azərbaycan Respublikasının 2020-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin Ehtiyat Fondundan "Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyətinə ilkin olaraq 5,0 (beş) milyon manat ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

3. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi Azərbaycan Respublikasının 2021-ci il dövlət büdcəsi layihəsində dövlət əsaslı vəsait qoyuluşunun (investisiya xərclərinin) bölgüsündə bu Sərəncamın 1-ci hissəsində göstərilən dəmir yolu xəttinin tikintisinin davam etdirilməsi üçün zəruri olan maliyyə vəsaitini nəzərdə tutsun.

4. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 24 noyabr 2020-ci il*

# Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə

Zati-aliləri.

Dağlıq Qarabağ bölgəsinin işğaldan azad olunması münasibətilə Sizi və Azərbaycan xalqını təbrik edirəm. Bölgədəki müharibənin dayandırılması ilə bağlı xəbərləri sevinclə qarşıladıq. Azərbaycan ilə Ermənistan arasında əldə edilən və imzalanan razılaşma ölkələriniz arasındakı hərbi əməliyyatlara faktiki olaraq son qoydu. Bu nəticə beynəlxalq səviyyədə Dağlıq Qarabağı Azərbaycanın tərkib hissəsi kimi tanıyan dünyada əlamətdar hadisə kimi qeyd olunur.

Azərbaycan hökuməti və xalqı bu Qələbəni Sizin uzun sürən münaqişəyə davamlı həll yolu tapmaq və dünyanın bu mühüm bölgəsindəki vəziyyəti normallaşdırmaq üçün nümayiş etdirdiyiniz qətiyyət və müdrik rəhbərliyiniz sayəsində qazandı.

ISESCO bu layiqli qələbəni Azərbaycan Respublikası ilə birlikdə qeyd edir və qarşıdakı illərdə təşkilatın imkanları daxilində ölkənizin rifah və tərəqqi istiqamətində bütün səylərini dəstəkləməyə davam edəcəkdir.

Zati-aliləri, ən yüksək hörmət və ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

Yaşasın Azərbaycan Respublikası!

*Dərin hörmətlə,*

***Salim bin Məhəmməd əl-MALİK,***
***ISESCO-nun Baş direktoru***

## Milli Məclisin iclasında

# Vətən müharibəsində Qələbə münasibətilə 2 orden, 15 medal təsis olunur





Noyabrın 24-də Milli Məclisin növbəti plenar iclası keçirildi. Parlamentin sədri Sahibə Qafarova öncə bildirdi ki, son dövrdə yeni növ koronavirus pandemiyası ilə bağlı ölkə ərazisində vəziyyət gərginləşib: "Virusun yayılması sürətlənib, yoluxan insanların sayı artıb. Mən bütün xəstələrə şəfa diləyirəm və sizdən də xahiş edirəm ki, özünüzü qoruyun. Çünki qarşıda bizi çox önəmli işlər gözləyir".

Sahibə Qafarova dedi ki, bu sessiyada gələn ilin dövlət büdcəsi və büdcə zərfinə daxil olan digər sənədlər müzakirə və qəbul edilməlidir.

Parlamentin sədri Milli Məclisin fəaliyyətini işıqlandıran media təmsilçilərindən də xəstəliyin yayılmasının qarşısını almağa, infeksiyadan qorunmağa kömək edən qaydalara ciddi riayət etməyini xahiş etdi. Qeyd olundu ki, koronavirusa qarşı mübarizə ümumxalq işidir və hamı bu mübarizədə fəal iştirak etməlidir.

Sonra gündəlikdəki məsələlərin müzakirəsi başladı. Əvvəlcə Milli Məclis sədrinin birinci müavini, Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli Vətən müharibəsində qələbə münasibətilə Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi ilə əlaqədar "Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə (ikinci oxunuş) və "Azərbaycan Respublikasının "Vətən Müharibəsi Qəhrəmanı" adının təsis edilməsi haqqında" Azərbaycan Respublikası Qanununun layihəsi barədə (ikinci oxunuş) məlumat verdi.

Bildirildi ki, Azərbaycan Prezidentinin təşəbbüsü ilə bu qanun layihələri hazırlanıb və təqdim olunub. Dövlət başçısı müalicədə olan hərbçilərlə görüşü zamanı bu məsələnin vacibliyini vurğulayıb və bildirib ki, Azərbaycan Respublikasında yeni orden və medallar təsis olunacaq və Vətən müharibəsində iştirak edən hərbçilər təltif olunacaqlar. Qanun layihələrinin mükəmməl hazırlandığını deyən birinci vitse-spiker qeyd etdi ki, bu sənədlər orden və medallarla bağlı bizim bugünədək formalaşmış qanunvericilik təcrübəmizə tam uyğundur. Eyni zamanda onların əsasnaməsində və təsvirində Azərbaycan dövlətçiliyi, Qarabağ tarixi, milli atributlarla bağlı bütün elementlər öz əksini tapıb.

Qeyd edək ki, dövlət başçısı tərəfindən yeni 2 orden - "Zəfər" və "Qarabağ", 15 yeni medal təsis olunması təklif edilib.

Hər iki qanun layihəsi ayrı-ayrılıqda səsə qoyularaq ikinci oxunuşda qəbul olundu.

"Dövlət qulluğu haqqında" qanunda dəyişiklik edilməsi barədə qanun layihəsi ilə bağlı parlamentin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Kamal Cəfərov çıxış etdi. Layihə barədə birinci oxunuşda geniş məlumat verdiyini deyən deputat bildirdi ki, ikinci oxunuşda layihənin predmeti ilə bağlı hər hansı əlavə rəy və ya təklif olmayıb. Qanun layihəsinin əsas məqsədi dövlət qulluqçularının fəaliyyətinin düzgün qiymətləndirilməsi, onların potensial imkanlarının aşkara çıxarılması, inkişafı və səmərəli istifadəsidir.

Deputat Fazil Mustafa çıxış edərək layihənin mükəmməl olduğunu dedi. Qanun layihəsi üçüncü oxunuşda təsdiq edildi.

İclasda "Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin 100 illiyi (1920-2020)" Azərbaycan Respublikasının yubiley medalının təsis edilməsi ilə əlaqədar "Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında" qanunda dəyişiklik edilməsi barədə qanun layihəsinə ikinci oxunuşda baxıldı. Milli Məclis sədrinin birinci müavini, Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli yubiley medalının mahiyyəti və təsviri barədə məlumat verdi.

Medal haqqında əsasnaməyə görə "Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin 100 illiyi (1920-2020)" yubiley medalı ilə elm, təhsil, habelə neft və sənaye sahələrində yüksək nailiyyətlər əldə etmiş, bu sahələrin inkişafına xüsusi töhfə vermiş, sosial-mədəni inkişafda fəal iştirak etmiş müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi qurumun əməkdaşları, o cümlədən keçmiş əməkdaşları, məzunları, həmçinin elm, təhsil və beynəlxalq əməkdaşlıq sahəsində dövlət siyasətinin həyata keçirilməsində və müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi qurumun tərəqqisində xüsusi xidmətləri olan Azərbaycan Respublikasının vətəndaşları, əcnəbilər və vətəndaşlığı olmayan şəxslər təltif edilirlər.

Müzakirələr zamanı çıxış edən Milli Məclisin komitə sədrləri Siyavuş Novruzov və Ziyafət Əsgərov bu məsələ ilə bağlı fikirlərini bildirdilər. Qanun layihəsi ikinci oxunuşda qəbul olundu.

Parlamentin Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədri Sadiq Qurbanov "Ətraf mühitin mühafizəsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə layihə haqqında məlumat verdi. Bildirildi ki, ikinci oxunuşda müzakirəyə çıxarılan layihə ölkə Prezidentinin "Azərbaycanda plastik qablaşdırma tullantılarının ətraf mühitə təsirinin azaldılmasına dair 2019-2020-ci illər üçün Tədbirlər Planı"na əsasən hazırlanıb. Qanun layihəsinə əsasən, qalınlığı 15 mikrona qədər olan polietilen torbaların idxalı, istehsalı, həmçinin ticarət, ictimai iaşə və digər xidmət obyektlərində istehlakçıya satılması və ya verilməsi 2021-ci il yanvarın 1-dən qadağan edilir. Eyni zamanda birdəfəlik istifadə üçün nəzərdə tutulan plastik qarışdırıcı çubuq, çəngəl, qaşıq, bıçaq, boşqab və stəkanların sahibkarlar tərəfindən idxalı, istehsalı, həmçinin ticarət, ictimai iaşə və digər xidmət obyektlərində istehlakçıya satılması və ya verilməsi də 2021-ci il iyulun 1-dən məhdudlaşdırılacaq.

Komitənin sədri qeyd edib ki, dəyişikliklərlə bağlı Ekologiya və Təbii Sərvətlər, İqtisadiyyat, Ədliyyə nazirliklərinin əməkdaşları ilə ətraflı müzakirələr aparılıb və onların qəbulu məqsədəmüvafiq hesab olunub.

Müzakirələrdə parlamentin komitə sədri Musa Quliyev, deputatlardan Razi Nurullayev, Aydın Hüseynov çıxış edərək təklif və suallarını səsləndirdilər. Komitə sədri Sadiq Qurbanov deputatların suallarını cavablandırdıqdan sonra qanun layihəsi ikinci oxunuşda qəbul edildi.

İclasda son olaraq Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsi ikinci oxunuşda müzakirəyə təqdim olundu. Milli Məclis sədrinin birinci müavini, Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli bildirdi ki, sənəd uyğunlaşdırma xarakteri daşıyır və "Ətraf mühitin mühafizəsi haqqında" qanun layihəsinə edilən dəyişikliyə əsasən hazırlanıb.

Məcəlləyə təklif olunan yeni 275.4 və 275.5-ci maddələrdə ekoloji təhlükəsizliyi pozan həm vəzifəli şəxslər, həm də hüquqi şəxslər üçün ciddi məbləğdə cərimələr nəzərdə tutulur. Eyni zamanda qeyd olunan xətaların inzibati tənbeh almış şəxs tərəfindən bir il ərzində təkrar törədilməsinə görə də inzibati məsuliyyət nəzərdə tutulur. Qanun layihəsi ikinci oxunuşda təsdiq olundu.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

# *Sahibə QAFAROVA:* "Beynəlxalq ictimaiyyətin susqunluğu və cəza tədbirləri görməməsi Ermənistanın işğalı 30 il davam etdirməsinə gətirib çıxarıb"

"Beynəlxalq ictimaiyyətin susqunluğu və cəza tədbirləri görməməsi Ermənistanın işğalı 30 il davam etdirməsinə gətirib çıxarıb".





Parlamentin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildirilib ki, bu fikirləri Milli Məclisin sədri Sahibə Qafarova Türkiyə Böyük Millət Məclisi və Avropa Şurası Parlament Assambleyasının (AŞ PA) Miqrasiya, Qaçqınlar və Məcburi Köçkünlər Komitəsinin birgə təşəbbüsü ilə noyabrın 24-də keçirilən "Miqrant uşaqların qorunması və itkin düşən uşaqların xilas edilməsi" adlı beynəlxalq konfransda çıxışı zamanı söyləyib.

Türkiyə Böyük Millət Məclisinin sədri Mustafa Şentop və AŞ PA prezidenti Rik Daemsin də iştirakı ilə keçirilən konfransda Milli Məclisin sədri müzakirə edilən mövzunun beynəlxalq ictimaiyyət üçün əhəmiyyətindən və aktuallığından söz açıb. Sahibə Qafarova AŞ PA-nın Miqrasiya, qaçqınlar və məcburi köçkünlər komitəsinə sədrlik etdiyi 2016-2018-ci illərdə də miqrant uşaqların problemlərini diqqət mərkəzində saxladığını, beynəlxalq ictimaiyyətin bu məsələyə daha çox diqqət ayırmasına çalışdığını xatırladıb.

Spiker sözügedən problemin ciddiliyini nümayiş etdirən bəzi rəqəmləri tədbir iştirakçılarının diqqətinə çatdıraraq bildirib ki, 2018-ci ilin sonu etibarilə qlobal miqyasda 31 milyon uşaq öz doğma yurd-yuvalarından didərgin düşüb. O deyib: "Təkcə 2014-2018-ci illər arasında 1600 miqrant uşaq həyatını itirmişdir ki, bu da hər gün bir uşaq deməkdir. Əminəm ki, reallıqda bu rəqəmlər daha qorxuncdur, çünki bir çox miqrant uşağın ölümü qeydə alınmayıb".

BMT-nin 2020-ci ilin may ayında açıqladığı hesabata diqqəti çəkən Milli Məclisin sədri bildirib ki, təkcə 2019-cu ildə 19 milyon uşaq münaqişələr və zorakılıq səbəbindən öz evlərini tərk etmək məcburiyyətində qalıb. Bu isə o deməkdir ki, hazırda dünyadakı miqrantların 12 faizi uşaqlardır, başqa sözlə, hər 8 miqrantdan biri uşaqdır. Bu rəqəmlər qorxuncdur, həyəcan təbili çalır. Son dövrlər COVID-19 pandemiyasının geniş vüsət alması isə vəziyyəti daha da qorxunc edib.

Spiker Sahibə Qafarova AŞ PA və digər beynəlxalq təşkilatların miqrant uşaqlarla bağlı problemə daha çox diqqət ayırmasından məmnun olduğunu ifadə etsə də, vəziyyətin yaxşıya doğru dəyişməməsindən təəssüfləndiyini bildirib. 2017-ci ilin oktyabrında "Avropada itkin düşmüş qaçqınlar və miqrant uşaqlar" adlı qətnamə layihəsinə imza atan 22 AŞ PA üzvündən birinin özü olduğunu xatırladan spiker bu sahədə görülən işlərin az səmərəli olmasının səbəbini "nəticə ilə mübarizə"də gördüyünü diqqətə çatdırıb. Bildirib ki, səbəblər isə müharibələr, hərbi münaqişələr, iqlimlə bağlı çağırışlar, yoxsulluq və digər qlobal problemlərdir. Bunlara qarşı isə səmərəli mübarizə aparılmır.

Milli Məclisin sədri Azərbaycanın da çoxsaylı qaçqın və məcburi köçkünə sahib olan, uzun illər bu problemdən əziyyət çəkən bir ölkə olduğunu konfrans iştirakçılarının diqqətinə çatdırıb. Bildirib ki, 1990-cı illərin əvvəllərində Azərbaycan Ermənistanın işğalçılıq siyasətinə məruz qalıb, nəticədə 1 milyon qaçqın və məcburi köçkünün problemi ilə üzləşib və bu, ölkənin hər 8 vətəndaşından 1-nin qaçqın və məcburi köçkün olması deməkdir. Beynəlxalq ictimaiyyətin susqunluğu və Ermənistanın cəzasız qalması 30 il boyunca - Silahlı Qüvvələrimiz 44 günlük Vətən müharibəsində öz ərazilərimizi işğaldan azad edənədək, Azərbaycan torpaqlarının 20 faizinin Ermənistan tərəfindən işğalının davam etməsi ilə nəticələndi.

Spiker dolayısı ilə beynəlxalq ictimaiyyətin, xüsusilə də beynəlxalq təşkilatların susqunluğu və təsirsizliyinin son nəticədə qlobal xarakterli məsələlərin, o cümlədən miqrant probleminin daha mürəkkəb hal almasına səbəb olduğunu vurğulayıb.

Sahibə Qafarova Suriya, İraq, Liviya, Yəmən kimi ölkələrdə və bütövlükdə, Aralıq dənizi regionundakı qeyri-sabitliyin də, bunun Türkiyə üçün yaratdığı çətinliklərin də beynəlxalq təşkilatların fəaliyyətinin səmərəsizliyinin nəticəsi olduğunu qeyd edib. Hazırda Türkiyənin təkcə Suriyadan 3,6 milyon qaçqına evsahibliyi etdiyini xatırladan spiker buna görə qardaş ölkənin ən böyük təşəkkürə layiq olduğunu, lakin beynəlxalq ictimaiyyətin oturub düşünməli olduğunu vurğulayıb.

Sonda Milli Məclisin sədri belə vacib konfransın keçirilməsinə verdiyi dəstəyə, həmçinin ona bu tədbirdə fəxri qonaq kimi iştirak etmək üçün göndərilən dəvətə görə Türkiyə Böyük Millət Məclisinə və şəxsən Mustafa Şentopa, AŞ PA-nın prezidenti Rik Daemsə və AŞ PA-nın Miqrasiya, qaçqınlar və məcburi köçkünlər komitəsinə təşəkkürünü ifadə edib.

◆ Prezidentə yazırlar

# "Vətən müharibəsində qalib gəlib torpaqlarımıza qovuşmaq sevincini bizə yaşatdığınız üçün Sizə minnətdarıq"

Azərbaycan vətəndaşları, xaricdə yaşayan soydaşlarımız Qarabağ müharibəsində əldə etdiyimiz tarixi Qələbə münasibətilə Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevə məktublar ünvanlamaqda davam edirlər. Sevinc və qürur hissləri ifadə olunan məktublarda dövlət başçısına minnətdarlıq bildirilir, Zəfər təbrikləri çatdırılır. AZƏRTAC Prezidentin saytına istinadla həmin məktubların daha bir neçəsini təqdim edir.



Özbəkistanın Cizak şəhərində yaşayan **Günel Əliyeva** yazır: "Hörmətli cənab Prezident, Özbəkistanda yaşayan azərbaycanlılar adından Sizi və bütün Azərbaycan xalqını möhtəşəm Qələbə münasibətilə səmimi-qəlbdən təbrik edirəm. Erməni təcavüzü nəticəsində şəhid olan bir neçə qohumumuz var. Onların ruhu bu gün şaddır. Vətən yolunda şəhid olanlara Allahdan rəhmət, yaralılarımıza şəfa diləyirəm. Uca Tanrı Sizi və xalqımızı qorusun! Qarabağ bizimdir, Qarabağ Azərbaycandır!"

Almaniyanın Frankfurt şəhərində yaşayan **Ernad Deni Çomaqa:** "Hörmətli cənab Prezident, Qarabağda suverenliyinizin bərpa olunması münasibətilə Bosniya diasporu adından Sizi təbrik edirəm. Bosniya xalqı Azərbaycan xalqının vəziyyətini yaxşı anlayır və onunla eyni çətinlikləri yaşayıb. Biz də yalnız müsəlman olduğumuz üçün təcavüz, zülm və soyqırımına məruz qalmışıq. Azərbaycanın qələbəsini ədalətin zəfəri kimi görməkdən məmnun olduq. Bu, bizə bir daha sübut etdi ki, xalq öz istəyi ilə azadlıq uğrunda səy göstərməsə, heç kim onun yerinə bunu etməyəcək. Azanın Şuşa və Ağdam məscidlərindən əbədi səslənməsini, həmçinin Bosniya xalqı ilə Azərbaycan xalqının qardaşlığının daimi olmasını arzu edirik".

Masallıdan **Yavər İsmayılov:** "Möhtərəm Prezident, cənab İlham Əliyev, Sizi, xalqımızı, Ordumuzu möhtəşəm Qələbə münasibətilə Masallı rayonu Ləngən kənd sakinləri adından ürəkdən təbrik edirik. Cənab Prezident, Sizin komandanlığınızla bu müqəddəs hissləri bizə yaşadan Müzəffər Ordumuza dərin minnətdarlığımızı bildiririk. Sizin rəhbərliyinizlə doğma Azərbaycanımız ildən-ilə daha da çiçəklənəcək, xalqımızın rifahı daha da artacaq. Bütün xalqımız Sizə Azərbaycanın Milli Qəhrəmanı fəxri adının verilməsi təklifini dəstəkləyir. Uca Tanrıdan Sizə, ailənizə, sevdiklərinizə uzun ömür, cansağlığı arzu edirik".

Gəncədən **Gülnar Salahova:** "Çox hörmətli liderimiz, əvvəla Sizi əldə etdiyiniz Qələbə münasibətilə ailəmiz adından ürəkdən təbrik edirik. Siz Ulu Öndərimiz Heydər Əliyevin layiqli davamçısı olaraq xalqımızın xilaskarı oldunuz. Allah hər zaman yolunuzu açıq etsin! Cənab Prezident, bu günlərdə sevincimizin həddi-hüdudu yoxdur. Əminik ki, geri qaytarılmış torpaqlarımızda Sizin sayənizdə azad yaşayacağıq. Evimizin ağsaqqalı ilə birlikdə biz Sizin hər bir çıxışınızı diqqətlə izləyir və verdiyiniz Qələbə xəbərlərini sevinc göz yaşları ilə qarşılayırıq. Cənab Prezident, Sizə olan inamımız, güvənimiz sonsuzdur. Vətənimiz uğrunda şəhid olmuş oğullarımızın ruhu qarşısında baş əyərək, Vətən sağ olsun deyirik! Ulu Tanrı Sizi, Azərbaycan Ordusunu, əsgər və zabitlərimizi qorusun!"

Naxçıvandan **Məmməd Məmmədov:** "Qəhrəman Prezidentimiz, Qarabağ torpaqlarının düşməndən alınması münasibətilə bütün naxçıvanlılar adından və ailəm adından Sizi təbrik edirik. Allah Sizi, Ordumuzu, Qarabağımızı və bütün xalqımızı qorusun. Naxçıvanlılar Sizinlə fəxr edir. Qarabağ Azərbaycandır!"

Şirvan sakini **Lyudmila Qribova:** "Hörmətli cənab Prezident, biz Qələbəyə ürəkdən inanırdıq və o gün gəldi! Qələbə! Sonsuz sevinc və göz yaşları bir-birinə qarışdı. Ümummilli Liderimiz Heydər Əliyevin layiqli oğlunun - Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müdrik rəhbərliyi altında bizim şanlı Ordumuz çoxdan həsrət qaldığımız Qarabağ torpaqlarını özümüzə qaytardı. Qəlbimiz sevinc və qürurla doludur ki, xalqımız yenilməzdir! Mən Şirvan şəhərində doğulub boya-başa çatmışam, hazırda 13 nömrəli orta məktəbin müəllimiyəm. Ailəm də artıq 6-cı nəsildir ki, bu bərəkətli torpaqlarda yaşayıb, yaşayır və yaşayacaq. Bizim başqa Vətənimiz yoxdur! Çünki bu Vətən mənə pulsuz təhsil verib, yaxşı tərbiyə verib, iş verib. Mən şəhər partiya komitəsində də işləmişəm, məktəb direktoru da olmuşam və heç kəs mənə deməyib ki, "sən russan". Altı nəsil az deyil. Hər zaman sevincdə də, kədərdə də öz xalqımızla birlikdə olmuşuq və nə qədər ki, ürəklərimiz döyünür - belə də olacaq! Respublikamızın ən çətin günlərində - 1993-1997-ci illərdə mənim neftçi-mühəndis və ehtiyatda olan zabit həyat yoldaşım Silahlı Qüvvələrdə xidmətə çağırılıb, kapitan rütbəsində şərəflə öz torpaqlarını qoruyub. Mənim övladlarım və nəvəm burada böyüyüb, Azərbaycan Respublikasının layiqli vətəndaşları olaraq yetişmişlər. Hörmətli Prezidentimiz, Sizə, ailənizə xoşbəxtlik, bütün xalqımıza səmimi-qəlbdən rifah arzulayıram. Yaşasın Azərbaycan!"

Balakən sakini **Kərimət Əliqayeva:** "Hörmətli Prezident, Müzəffər Ali Baş Komandan, işğal altında olan torpaqlarımızın azadlığı uğrunda qazandığımız Qələbəyə, Zəfərə görə Sizi ailəmiz adından, şəxsən öz adımdan ürəkdən təbrik edirəm. Çox şükürlər olsun ki, bundan belə biz şəhid analarının gözlərindən yaş axmayacaq, şəhid oğullarımızın qanı yerdə qalmadı, daha qan tökülməyəcək, ah-nalələr göyə ucalmayacaq. Bir şəhid anası olaraq ən böyük arzum 21 il öncə şəhid olmuş oğlumun qanı tökülən yeri ziyarət etməkdir. Bu imkanı bizə bəxş etdiyiniz üçün Sizə minnətdaram, ey böyük Sərkərdəmiz!"

Füzuli sakini **Mədəd Hacıyev:** "Hörmətli Prezident, Müzəffər Ali Baş Komandan, apardığınız məqsədyönlü siyasəti dəstəkləyir və bu ağır Vətən müharibəsində dövlətimizin qalib olub öz torpaqlarına qovuşmağı sevincini bizə yaşatdığınız üçün Sizə öz dərin minnətdarlığımı bildirirəm. Sizin sayənizdə Azərbaycan xalqı tarixə şanlı hərflərlə Qələbə sözünü yazdı. Bütün Füzuli camaatı adından Sizə təşəkkür edirəm. Allah şəhidlərimizə rəhmət eləsin. Allah Sizi və Ordumuzu qorusun! Yaşasın müstəqil Azərbaycan!"

Gədəbəydən **Elsevər Nağıyev:** "Müzəffər Ali Baş Komandan, bu gün ölkəmiz naminə həyata keçirilən tədbirlərə, görülən işlərə görə Sizə minnətdarlığımı bildirirəm. Torpaqlarımızın azadlığı uğrunda əldə edilmiş Qələbə münasibətilə Sizi təbrik edir, Sizə xoş arzularımı bildirirəm. Biz gənclər daim Sizə güvənərək Sizin ətrafınızda sıx birləşmişik. Sizə möhkəm cansağlığı və işlərinizdə uğurlar arzulayıram".

Ağdam sakini **Vüsalə Bağırova:** "Hörmətli cənab Prezident, Sizin Vətənimizin ərazi bütövlüyü uğrunda apardığınız mübarizəni dəstəkləyirik. Çünki Siz bu mübarizə ilə tarix yazırsınız. Ən yeni tarix, o tarix ki, Azərbaycan əbədi bir dövlət olduğunu sübut edir. Biz Sizin siyasətinizi ailəliklə alqışlayırıq. Qarabağ Azərbaycandır!"

Masallıdan **Pərvanə Məmmədova:** "Cənab Prezident, Sizi və bütün Azərbaycan xalqını erməni vandallar üzərində qazanılmış bu möhtəşəm Qələbə münasibətilə təbrik edirəm və əmin-amanlıq arzulayıram. Sağ olsun, mənim rəhbərim. Uca Allahdan bu müqəddəs yolda canlarından keçən qəhrəman Azərbaycan övladlarına rəhmət, yaralılarımıza şəfa diləyirəm. Yaşasın Azərbaycan!"

Bakı sakini **Gülşən İsmayılova:** "Hörmətli cənab Prezident, ölkənin yenilməz sərkərdəsi, mənim 65 yaşım var. Özüm qarabağlı olsam da, 17 yaşından Bakı şəhərində yaşayıram. Kəlbəcər, Laçın və Şuşanı görən, gəzən adam kimi yenidən həmin yerləri görmək nisgili ilə yaşayırdım. Siz isə Qarabağ nisgilini ürəyimizdən sildiniz, bizi göylərə qaldırdınız. Şəhid ailələrinin qarşısında baş əyir, onlara səbir arzulayır, şəhidlərimizə rəhmət, yaralılara şəfa diləyirəm. Siz bizim ölkəmizi inkişaf etdirən Prezident, Müzəffər Ali Baş Komandansınız. Siz xalqımızın adil rəhbəri, müdrik atasısınız. Sizin qızıldan heykəliniz qoyulmalıdır. Allah Sizə kömək olsun! Rəbbim Sizi qorusun! Allah Sizi bədnəzərdən qorusun!"

# Anar Kərimov və BMT-nin Sivilizasiyalar Alyansı üzrə ali nümayəndəsi Migel Angel Moratinos arasında onlayn görüş keçirilib

Mədəniyyət nazirinin birinci müavini, nazirin vəzifələrini müvəqqəti icra edən Anar Kərimov BMT-nin Sivilizasiyalar Alyansı (BMTSA) üzrə ali nümayəndəsi Migel Angel Moratinos ilə onlayn formatda görüş keçirib.

Nazirlikdən AZƏRTAC-a bildirilib ki, görüşdə Ermənistanın Azərbaycana təcavüzü nəticəsində Azərbaycan mədəniyyətinə dəymiş ziyan, habelə Prezident İlham Əliyevin "Bakı prosesi" təşəbbüsü, bu təşəbbüs çərçivəsində 2021-ci ildə baş tutacaq 6-cı Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun təşkili, eləcə də Azərbaycanın beynəlxalq miqyasda mədəniyyətlər və dinlərarası dialoqa töhfələri ilə bağlı müzakirələr aparılıb.

A.Kərimov son 30 ildə Ermənistanın apardığı təcavüzkar və işğalçı siyasəti nəticəsində Azərbaycanın vaxtilə iş-



ğal edilmiş və hazırda işğaldan azad olunan ərazilərində mövcud olan tarixi-mədəni abidələr və mədəniyyət infrastrukturunun acınacaqlı vəziyyəti, ölkəmizin bütün bu illər ərzində sülh və dialoq təşəbbüsləri barədə Ali Nümayəndəyə ətraflı məlumat verib.

Nazir qeyd edib ki, BMTSA 2010-cu ildən etibarən "Bakı prosesi" və Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun tərəfdaşıdır. O, həmçinin BMTSA-nın 7-ci Qlobal Forumunun 2016-cı ildə Bakıda yüksək səviyyədə keçirildiyini bildirmişdir. Migel Angel Moratinos Azərbaycan ilə mədəniyyətlər və dinlərarası dialoq sahəsində əməkdaşlığı yüksək qiymətləndirdiyini qeyd edərək bu sahədə birgə layihələrin həyata keçirilməsində maraqlı olduğunu ifadə edib.

A.Kərimov BMTSA-nın BMT-nin baş katibi tərəfindən "Dini abidələrin qorunması üzrə Fəaliyyət Planı"nın icrasına məsul qurum kimi mandatını xatırladaraq Azərbaycanın mənşəyindən asılı olmayaraq bütün ibadət məkanlarının qorunması ilə bağlı təşkilatla əməkdaşlığa hazır olduğunu qeyd edib.

M.Moratinos dini abidələrin qorunmasının təşkilatın prioritet fəaliyyət istiqamətlərindən olduğunu, bu sahədə Azərbaycanla əməkdaşlığı yüksək qiymətləndirdiyini qeyd edərək konkret layihələrin reallaşdırılmasının vacibliyini vurğulayıb.

Sonda regionda mədəniyyətlər və dinlərarası münasibətlərin inkişafı ilə bağlı təşəbbüs və layihələrin icrası və həmin layihələrin yaxşı nümunə kimi Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunda təqdim edilməsi barədə razılığa gəlinib.

# Azərbaycandakı dini konfessiyaların rəhbərləri Qarabağda dağıdılan dini abidələrimizlə bağlı birgə bəyanat veriblər

## Qarabağ ərazisində mövcud olan 67 məsciddən 63-ü yerlə-yeksan edilib, qalan 3 məscidə isə ciddi zərər vurulub

Azərbaycandakı dini konfessiyaların rəhbərləri Qarabağda erməni vandallar tərəfindən dağıdılan və zərər vurulan dini abidələrimizlə bağlı birgə bəyanat veriblər.

Qafqaz Müsəlmanları İdarəsinin Mətbuat xidmətindən AZƏRTAC-a daxil olan bəyanatın mətnini təqdim edirik:

"Biz, Azərbaycandakı müsəlman, pravoslav, Alban-udi və yəhudi dini konfessiyalarının rəhbərləri dindarların arzu və iradəsini ifadə edərək xarici ölkələrin dövlət və hökumət başçılarına, beynəlxalq təşkilatların rəhbərlərinə, dini liderlərə və dünya ictimaiyyətinə müraciət edirik.

Bu günlərdə öz ərazi bütövlüyünü bərpa etmək uğrunda 30 illik mücadilədən sonra Azərbaycanın üçrəngli dövlət bayrağının Qarabağ torpaqları üzərində yenidən dalğalanması çoxmillətli və çoxkonfessiyalı ölkəmizdə tarixi ədalət və istiqrarın qələbəsi anlamını verir. Azərbaycan dövləti və onun Prezidenti Zati-aliləri cənab İlham Əliyev sülhsevər siyasət yeridərək, uzun illər ərzində Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüquq və beynəlxalq təşkilatların qərar və qətnamələri əsasında sülh yolu ilə həllində ardıcıllıq nümayiş etdirirdi. Bu illər ərzində siyasi danışıqlar nəticə vermədi, Ermənistan silahlı qüvvələrinin Azərbaycan ərazilərindən qeyd-şərtsiz çıxarılmasını tələb edən BMT qətnamələri yerinə yetirilmədi. Ermənistan tərəfinin növbəti hərbi təxribatlarının qarşısını almaq məcburiyyətində qalan Azərbaycan xalqı öz ərazi bütövlüyünü bərpa etmək uğrunda Vətən müharibəsinə qalxdı və bu savaş beynəlxalq hüququn və ədalətin təntənəsi ilə nəticələndi. Ölkəmizin ərazi bütövlüyü uğrunda şəhid olanlar arasında müsəlmanlarla yanaşı xristian və yəhudilər də vardır.

Lakin dünya ictimaiyyəti bilməlidir ki, Ermənistan Azərbaycana qarşı təkcə etnik təmizləmə, soyqırımı və işğal deyil, uzun illər ərzində ölkəmizin öz müxtəlifliyi ilə fərqlənən mədəni və mənəvi irsinə qarşı təcavüz siyasəti yeridib. Ermənistanın monoetnikliyə söykənən dövlət siyasəti onun işğal etdiyi ərazilərdə də yalnız erməni izi yaratmağa xidmət edib. Digər xalqlara və dinlərə qarşı dözümsüzlüklə səciyyələnən cəmiyyət yaratmış Ermənistan çoxmillətli və çoxkonfessiyalı Azərbaycanın işğal altında olan ərazilərində tarixən mövcud olmuş qədim alban, pravoslav, müsəlman dini və mədəni irsini tamamilə silməyə çalışıb. Mədəni-mənəvi irs nümunələrimizi ya tamamilə dağıdıb, ya da tarixini və mənşəyini saxtalaşdıraraq özününküləşdirib - erməniləşdirib, qriqoryanlaşdırıb.

Ermənistandan fərqli olaraq Azərbaycanda, paytaxt Bakıda və müxtəlif bölgələrdə minlərlə erməniəsilli vətəndaş əmin-amanlıq şəraitində yaşayır, Bakının mərkəzində erməni kilsəsi və onun kitabxanası dövlət tərəfindən abadlaşdırılaraq qorunur. Azərbaycanın işğal olunmuş ərazilərində isə məscid, məbəd və məzarlıqlar, tarixi abidələr, muzeylər, kitabxanalar dağıdılıb və talan edilib, Qafqaz Albaniyasına məxsus xristian məbədləri və rus pravoslav kilsələri qriqoryanlaşdırılıb, məscidlər tövləyə çevrilərək islam dinində haram sayılan heyvanların saxlanılması kimi misli görünməmiş həqarət əməllərinə məruz qalıb. Qarabağ ərazisində mövcud olan 67 məsciddən 63-ü yerlə-yeksan edilib, qalan 3 məscidə isə ciddi zərər vurulub. Ermənistan öz ərazisində yerləşən tarixi Azərbaycan dini abidələrini - İrəvan "Şah Abbas", "Sərdar", "Hacı Novruz Əli" və digər məscidləri tamamilə uçurub, Göy məscidin arxitektura xüsusiyyətlərini dəyişərək özgəninkiləşdirib. Yalnız müsəlman məscidlərini məhv etməklə kifayətlənməyən Ermənistan Şuşadakı İoann Predteça pravoslav kilsəsini, digər bölgələrdəki Alban-udi məbədlərini qəsb edərək qriqoryanlaşdırıb, Xocavənd pravoslav kilsəsini tamamilə dağıdıb. Təcavüzkar dövlətin bu cür vandal əməllərə əl atmaqda əsas məqsədi "böyük Ermənistan" yaratmaq xülyası ilə bizim minilliklər ərzində yaşadığımız torpaqlarda həm tarixi keçmişimizi, həm də mənəvi yaddaşımızı məhv etmək olub.

İllərlə öz təcavüzkar siyasətini davam etdirən Ermənistan rejimi beynəlxalq hüquq və beynəlxalq humanitar hüquq normalarına heç bir məhəl qoymayıb, işğal etdiyi torpaqlarda yanğınlar, fosforlu bombalar, zəhərli maddələr və minalar vasitəsilə ekoloji cinayətlər törədib. Bu gün onların Azərbaycan ərazilərindən çıxarkən törətdikləri vəhşiliklər, maddi-mənəvi sərvətlərin talan edilməsi, sənət əsərlərinin oğurlanması, meşələrə və mülki obyektlərə od vurulması kimi real faktlar dünya mediası tərəfindən geniş işıqlandırılır.

Ermənistanın çoxmillətli və çoxkonfessiyalı Azərbaycan xalqının dini və mədəni irsinin məhv edilməsi və saxtalaşdırılmasına yönəlmiş əməlləri beynəlxalq humanitar hüquq, o cümlədən Cenevrə Konvensiyalarının açıq-aşkar pozulması ilə yanaşı, bütün bəşər mədəniyyətinə və ümumdünya əhəmiyyətli irsinə qarşı təcavüzdür.

Multikultural ənənələrə sadiq olan Azərbaycan Hökuməti mədəni-mənəvi dəyərlərin qorunması siyasətini prioritet istiqamət kimi dəyərləndirir və nəinki ölkə daxilində, hətta dünyanın müxtəlif bölgələrində, o cümlədən Vatikanda, Fransada, Bolqarıstanda, Serbiyada tarixi abidələrin, məscid və kilsələrin bərpasına əvəzsiz töhfələr verir. Dünyanın multikulturalizm mərkəzlərindən biri kimi tanınan Azərbaycan sivilizasiyalararası və dinlərarası dialoqu təşviq edən bir sıra nüfuzlu beynəlxalq tədbirlərə, o cümlədən 2019-cu ilin noyabr ayında Dünya dini liderlərinin II Bakı sammitinə ev sahibliyi edib. 2016-cı ilin oktyabr ayında Azərbaycana səfər edən Roma Papası Fransisk ölkəmizdə müxtəlif mədəniyyətlər və dini konfessiyalar arasında əməkdaşlıq və dialoqu yüksək qiymətləndirib.

Hazırda Ermənistan Azərbaycana qarşı dini mövzuda yalan təbliğat aparır, işğaldan azad olunmuş ərazilərimizdə dini-mədəni abidələrin guya Azərbaycan tərəfindən dağıdılmasına yönələn addımların atıldığını iddia edir, öz təxribatını ölkəmizin adına yazmağa cəhd göstərir. Bu qədər real faktların müqabilində təcavüzkar Ermənistanın davamlı riyakar çıxışları, feyk xəbərləri, özünü məzlum göstərən yalan informasiyaları Azərbaycan vətəndaşlarının, tolerant, multikultural ölkədə yaşayan bütün dini konfessiya nümayəndələrinin haqlı qəzəbinə səbəb olur.

Azərbaycanın dövlət başçısı öz müraciət və müsahibələrində dəfələrlə bəyan edib ki, Azərbaycanın digər ərazilərində olduğu kimi işğaldan azad olunmuş torpaqlarda da bütün dini və mədəni abidələr, ibadət evləri bərpa ediləcək, hər bir insanın inancına hörmətlə yanaşılacaq, sülh şəraitində birgəyaşayış təmin olunacaqdır. Tarixboyu Azərbaycanda firavan yaşayan və öz dini ayinlərini sərbəst şəkildə yerinə yetirən xristian pravoslav, katolik, Dağ yəhudiləri, Alban-udi xristian, aşkenazi-Avropa yəhudiləri və digər dini icmalarının rəhbərləri olaraq Azərbaycanın bu sülhpərvər siyasətini dəstəkləyir, tariximizin və mədəniyyətimizin bərpası sahəsində görüləcək möhtəşəm quruculuq işlərinə xeyir-dualar veririk.

Biz, Azərbaycandakı dini konfessiya rəhbərləri xarici ölkələrin dövlət və hökumət başçılarına, beynəlxalq təşkilatların rəhbərlərinə, dini liderlərə və dünya ictimaiyyətinə müraciət edərək, onları ölkəmizdə və yaşadığımız bölgədə sülh, əmin-amanlıq və birgəyaşayışın bərqərar olmasına dəstək verməyə çağırırıq!

***Şeyxülislam Allahşükür PAŞAZADƏ,***
***Qafqaz Müsəlmanları İdarəsinin sədri***
***ALEKSANDR,***
***Bakı və Azərbaycan Arxiyepiskopu***
***Milix YEVDAYEV,***
***Azərbaycandakı Dağ yəhudiləri icmasının rəhbəri***
***Aleksandr ŞAROVSKİ,***
***Bakıdakı Avropa yəhudiləri icmasının rəhbəri***
***Şneor SEQAL,***
***Azərbaycan aşkenazi yəhudilərinin baş ravvini***
***Robert MOBİLİ,***
***Alban-udi icmasının rəhbəri***

*Bakı, 24 noyabr 2020-ci il"*

# Biz birlikdə güclüyük!

## Karantin rejiminin tələblərinə tam şəkildə əməl edilməlidir

Bütün planeti çənginə almış pandemiyanın ikinci dalğası bəşəriyyəti təhdid altında saxlamaqda davam edir. Dünyada koronavirusa yoluxanların və ölənlərin sayı durmadan artır. Son statistikaya görə, yeni növ koronavirusa ümumi yoluxma sayı 60 milyona çatmaq üzrədir. Bu günə qədər COVID-19-dan 1 milyon 400 min 427 nəfər dünyasını dəyişib. Ən çox yoluxma ABŞ-da (12 milyondan çox), Hindistanda (9 milyondan çox), Braziliyada (6 milyondan çox), Fransada (2 milyondan çox) qeydə alınıb.

Koronavirus pandemiyasının yayılması və aşkarlanması ilə bağlı son statistika Azərbaycanda da vəziyyətin yaxşılığa doğru dəyişmədiyini göstərir. Təəssüf ki, dünyada olduğu kimi, ölkəmizdə də bir sıra obyektiv və subyektiv səbəblərdən yeni növ koronavirus infeksiyasına yoluxma halları artıb.

Azərbaycanda koronavirusa ən çox yoluxma faktı Bakı şəhərində müşahidə olunur. Belə ki, ümumi yoluxma hallarının 53,5 faizi paytaxtın payına düşür. Yeni göstəricilərə əsasən, paytaxt rayonları arasında ən yüksək yoluxma Binəqədi rayonunda qeydə alınıb. Belə ki, paytaxt üzrə yoluxma hallarının 14,7 faizi həmin rayonun payına düşür. Paytaxtın digər rayonlarına gəlincə, yoluxma hallarının 12,7 faizi Xətai, 11,6 faizi Yasamal, 11,3 faizi Sabunçu, 8,4 faizi Suraxanı, 8,3 faizi Nəsimi, 8 faizi Nərimanov, 7,3 faizi Nizami, 6,3 faizi Qaradağ, 6,3 faizi Xəzər, 4,8 faizi Səbail, 0,3 faizi Pirallahı rayonlarında qeydə alınıb.

Bu ilin əvvəlindən Azərbaycan dövləti tərəfindən həyata keçirilən koronavirusla mübarizə tədbirlərinin səmərəliliyi sayəsində ölkəmizdə yoluxma hallarının sayı minimuma endirilmişdi. Görülən qabaqlayıcı tədbirlər nəticəsində Azərbaycan istər iqtisadiyyatı, istərsə də əhalisi pandemiyanın dağıdıcı təsirinə ən az məruz qalmış ölkələr sırasında yer almışdı. Lakin yoluxma sayında kəskin azalmanın müşahidə olunması ilə əlaqədar tətbiq olunmuş sərt karantin rejiminin mərhələli şəkildə yumşaldılması əksər vətəndaşlarımız tərəfindən pandemiyanın bitməsi kimi qəbul edildi. Bu isə öz növbəsində karantin rejiminin sosial məsafə saxlanılması, qoruyucu tibbi maskalardan istifadə və digər bu kimi vacib qaydalara laqeyd yanaşmanın ortaya çıxmasına gətirib çıxardı. Laqeydliyin acı nəticələri də özünü çox gözlətmədi. Qısa müddət ərzində Azərbaycanda koronavirusa yoluxma hallarının gündəlik sayı yüksəldi. Hazırda isə bu statistik göstərici 2 mindən, bəzən isə 3 mindən yuxarı rəqəmlərlə ifadə olunur. Eyni zamanda koronavirusa yoluxan xəstələr arasında ölüm hallarının da göstəriciləri əvvəlki aylarla müqayisədə xeyli artıb.

Azərbaycanda koronavirusa yoluxma sayının hər gün artması narahatlıq doğurduğundan aidiyyəti qurumlar tərəfindən sanitar-epidemioloji vəziyyət təhlil olunaraq bütün lazımi addımlar atılır. Buna görə respublikamızda virusun yayılmasının və onun törədə biləcəyi fəsadların qarşısının alınması məqsədilə ölkə ərazisində xüsusi karantin rejiminin müddəti dekabrın 28-dək uzadılıb, eləcə də bəzi qadağaların yenidən tətbiq edilməsinə qərar verilib. Bakı Metropolitenində sərnişindaşımanın fəaliyyətinə tətbiq olunan məhdudiyyət 28 dekabradək uzadılıb, bütün ölkə ərazisində şənbə və bazar günləri ictimai nəqliyyatın fəaliyyəti dayandırılıb. Eyni zamanda şənbə və bazar günləri həyati əhəmiyyət kəsb edən fəaliyyət növləri, o cümlədən aptek və ərzaq mağazaları istisna olmaqla, digər bütün sahələr üzrə xidmətlər dayandırılıb.

Dünyada, o cümlədən Azərbaycanda mövcud sanitar-epidemioloji vəziyyəti nəzərə alaraq yüksək risk qrupuna daxil olan yaşı 65-dən yuxarı şəxslərin zərurət yaranmadan yaşayış yerlərini tərk etməmələri tövsiyə olunur. Həmçinin özəl sektorda və digər sahələrdə fəaliyyət göstərən qurum və təşkilatlara da işçilərin say həddinin 30 faizədək azaldılması və digər əməkdaşların məsafədən iş rejiminə keçirilməsi tövsiyə edilib.

Digər qərar xüsusi karantin rejiminin qüvvədə olduğu müddətdə ölkə üzrə bütün qapalı və açıq məkanlarda tibbi maskalardan istifadənin məcburi olmasıdır. Bununla da maskalardan istifadə qaydalarına nəzarət rejimi daha da sərtləşdirilib. Xatırladaq ki, tibbi maskadan istifadə olunmaması və ya tələb olunan normalara uyğun taxılmaması qanunla müəyyən edilmiş qaydada məsuliyyət yaradır. İnzibati Xətalar Məcəlləsinin 211.2-ci maddəsinə əsasən, epidemiya əleyhinə rejim, sanitariya-gigiyena və karantin rejimləri dövründə fərdi qoruyucu vasitələrdən istifadə ilə bağlı müəyyən edilən tələblərin pozulmasına, habelə vəzifəli şəxslər və hüquqi şəxslər tərəfindən həmin tələblərin pozulmasının qarşısının alınmamasına görə fiziki şəxslər 100, vəzifəli şəxslər 200, hüquqi şəxslər 400 manat məbləğində cərimə edilir.

Son günlər COVID-19-a yoluxanların sayında artımın baş verməsi epidemioloq, infeksionist, virusoloq və digər mütəxəssisləri ciddi narahat edir, onlar bunu müxtəlif səbəblərlə izah edirlər. Səhiyyə Nazirliyinin baş infeksionisti Təyyar Eyvazov deyib ki, vətəndaşların COVID-19-la əlaqədar qoruyucu tədbirlərə riayətetmə səviyyəsi mütəxəssisləri qane etmir: “Qapalı məkanlarda virusun yayılması üçün münbit şərait daha çoxdur, xüsusilə mülayim temperatur və rütubətin az olduğu yerlərdə nəinki asqıranda və öskürəndə, hətta bir qədər ucadan danışanda da virus hissəcikləri ətrafa yayılır. Lakin bununla yanaşı onu da müşahidə edirik ki, qapalı məkanlarda qoruyucu tədbirlərə riayət edilməsi bir o qədər də kütləvi xarakter daşımır. Halbuki dəfələrlə xəbərdarlıq edildiyi kimi, yoluxmaqdan qorunmaq üçün sadə qaydalara əməl edilməsi həyati əhəmiyyət daşıyır. Hazırda hava soyuq olduğundan otaqlar qızdırıcı sistemlərlə isidilir və havalandırma aparılmır. Təbii ki, havalandırma getmədiyindən və təmaslar yaxın olduqca yoluxma ehtimalı yüksəlir”.

Baş infeksionistin sözlərinə görə, virusun hissəcikləri kiçik olduğundan onlar daha uzun məsafə qət edirlər, yəni həmin hissəciklər daha uzun müddət havada qalaraq, nisbətən aralıda olanları da yoluxdura bilər. Ona görə də otaqları havalandırmaqla yanaşı, eyni vaxtda otaqda olanların da sayını azaltmaq, minimuma endirmək lazımdır. Məhz bunu nəzərə alaraq Nazirlər Kabineti yanında Operativ Qərargah da nəinki dövlət sektorunda, hətta özəl müəssisələrdə də işçilərin sayının 30 faizədək azaldılmasını tövsiyə edib.

Koronavirusun kütləvi yayılmasının qarşısının alınması məqsədilə dövlət tərəfindən lazımi işlər həyata keçirilir. Lakin görülən tədbirlərin effektiv olması üçün vətəndaşların da karantin qaydalarının tələblərinə tam şəkildə əməl etmələri vacibdir. Nəzərə almaq lazımdır ki, COVID-19-a qarşı peyvənd tapılmayana qədər yeganə yol gözəgörünməz düşmənlə mübarizədə qorunmaqdan və pandemiya qaydalarına uyğun yaşamaqdan ibarətdir. İlk növbədə mümkün qədər zərurət olmadığı təqdirdə evdən bayıra çıxmamaq, qapalı məkanlarda, tünlük yerlərdə çox olmamaq lazımdır. Həmçinin yaxın təmasdan, sıx ünsiyyətdən çəkinmək də vacib şərtdir. Başqa bir şərt sosial məsafənin gözlənilməsi və ən nəhayət, maska taxmadan heç bir ictimai yerə üz tutmamaq, əllərin antiseptik vasitələrlə dezinfeksiyasıdır. Etiraf edək ki, bu qaydalar çox təkrarlanır. Ancaq nə qədər ki, biz belə vəziyyətdə yaşayırıq, nə qədər ki, qorunmaq üçün ikinci bir vasitə və yol yoxdur, dəfələrlə təkrarlanan bu qaydalara əməl etmək zərurəti var. Bu ciddi təhlükədən qorunmaq üçün hamı xüsusi karantin rejiminin qaydalarına riayət etməli, maska taxmalı, şəxsi gigiyenasını gözləməli və bir an belə məsuliyyət hissini unutmamalıdır.

***Xəyalə MURADLI,***
***“Azərbaycan”***

## Abşeronda rayondaxili reydlər davam edir



Abşeron rayonunda COVID-19 infeksiyasının yayılmasının qarşını almaq üçün həyata keçirilən nəzarət, maarifləndirmə və təbliğat tədbirləri davam edir. Rayon icra hakimiyyəti başçısının yanında yaradılmış operativ qərargahın üzvləri, hüquq mühafizə orqanlarının əməkdaşlarının və könüllülərdən ibarət mobil qrupların birgə iştirakı ilə Xırdalan şəhəri də daxil olmaqla kənd və qəsəbələrdə fəaliyyətinə icazə verilən obyektlərə baxış keçirilir, sakinlərlə söhbət aparılır.



Son günlər yoluxma hallarının artması ilə bağlı rayon daxilində görülən işlərin miqyası genişlənib. Hər həftənin şənbə və bazar günləri rayonun, demək olar ki, bütün ərazisində dezinfeksiya işləri aparılır. Küçə və prospektlər, qəsəbə və kəndləri birləşdirən yollar xüsusi maye ilə yuyulur, supermarketlər, ictimai nəqliyyat vasitələri dezinfeksiya edilərək təmizlənir.

Rayon ərazisində karantin qaydalarına riayət edilməsini yoxlamaq məqsədilə hər gün müxtəlif istiqamətlərdə reyd də keçirilir. Masazır və Novxanı kəndlərində keçirilən növbəti reyd zamanı satıcıların və istehlakçıların tibbi maskadan istifadəsinin, sosial məsafənin gözlənilməsinin, ticarət obyektlərinin dezinfeksiyaedici vasitələrlə təmin olunmasının zəruriliyi bir daha sahibkarların diqqətinə çatdırılmışdır.

Aparılan monitorinqlər zamanı fəaliyyət göstərən əksər iaşə obyektlərində Operativ Qərargahın qərarlarına uyğun şəraitin yaradılması, qaydalara ümumən düzgün riayət edilməsi müşahidə olunub. Aşkar edilən nöqsanlar isə yerindəcə aradan qaldırılıb və sahibkarlıq subyektlərinin vəzifəli şəxsləri zəruri sosial davranış və sanitar-epidemioloji normalarla bağlı məlumatlandırılıblar.

Nazirlər Kabineti yanında Operativ Qərargahın tələblərinin yerinə yetirilməsini təmin etmək məqsədilə rayonda reydlər və maarifləndirmə tədbirləri bunan sonra da davam edəcək.

***Akif ƏLİYEV,***
***“Azərbaycan”***

## Digər şəxslərin sağlamlığını təhlükə qarşısında qoyan koronavirus xəstələri məsuliyyətə cəlb ediliblər

Daxili işlər orqanlarının əməkdaşları ölkə ərazisində tətbiq olunmuş xüsusi karantin rejimi dövründə COVID-19 virusunun yayılması hallarının qarşısının alınması istiqamətində bir sıra tədbirlər həyata keçirirlər. Vətəndaşların epidemiya əleyhinə rejimin, sanitariya-gigiyena qaydalarını pozması hallarına yol verməmələri ciddi nəzarətdə saxlanılır. Daxili İşlər Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, TƏBİB-dən daxil olmuş məlumatlara dərhal reaksiya verilməklə zəruri tədbirlər görülür, koronavirusa yoluxmuş və ev şəraitində müalicə olunan şəxslərin müəyyənləşdirilmiş qaydalara riayət etmələri, öz hərəkətləri ilə digər şəxslərin yoluxmasına təhlükə yaratmamaları diqqət mərkəzində saxlanılır.

Xüsusi karantin rejimi qaydalarına zidd olaraq, COVID-19 xəstələrinə ev şəraitində müalicə təyin olunmasına baxmayaraq, yaşayış yerlərini tərk etməsi halları müşahidə olunub. Noyabrın 22-də və 23-də polis əməkdaşları və Daxili Qoşunların hərbi qulluqçuları tərəfindən paytaxtda 30, Gəncə, Sumqayıt, Şirvan şəhərlərində, eləcə də Goranboy, Şabran, Zaqatala, Sabirabad, Biləsuvar, Quba, Qusar, Cəlilabad və Saatlı rayonlarında 21 aktiv koronavirus xəstəsinin digər şəxslərin sağlamlığını təhlükə qarşısında qoyaraq sərbəst hərəkət etmələri müəyyənləşdirilib. Həmin şəxslər görülmüş tədbirlər nəticəsində dərhal təcrid ediliblər.

Hər bir fakt üzrə müvafiq rayon polis idarə və şöbələrində Cinayət Məcəlləsinin 139-1.1-ci (epidemiya əleyhinə rejimin, sanitariya-gigiyena və ya karantin rejimlərinin pozulması) maddəsi ilə cinayət işi başlanıb.

Bu istiqamətdə tədbirlər davam etdirilir.

## Azərbaycanda koronavirus infeksiyasına daha 3646 yoluxma faktı qeydə alınıb, 1259 nəfər sağalıb

Azərbaycan Respublikasında koronavirus infeksiyasına daha 3646 yoluxma faktı qeydə alınıb, 1259 nəfər müalicə olunaraq sağalıb.

Nazirlər Kabineti yanında Operativ Qərargahdan AZƏRTAC-a verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış 34 nəfər vəfat edib.

Hazırkı dövrədək ölkəmizdə 98 min 927 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib. Onlardan 65 min 734 nəfər müalicə olunaraq sağalıb, 1194 nəfər vəfat edib. Aktiv xəstə sayı 31999 nəfərdir.

Ötən müddət ərzində 1 milyon 631 min 597 test aparılıb. Dünənki test sayı isə 14358-dir.

# Polis zor tətbiq edir, etirazçılar silahlanırlar

### Ermənistanda Paşinyana qarşı kütləvi aksiyalar davam edir

Baş nazir kürsüsünü itirmək istəməyən Nikol Paşinyan kütləvi etirazların qarşısını almaq üçün bütün repressiv tədbirlərə əl atır. İndiyədək Yerevanda həbs edilənlərin, polis zorakılığına məruz qalanların sayı yüzlərlədir. Baş verənlərdən belə məlum olur ki, tezliklə Ermənistanda vəziyyət daha gərgin xarakter alacaq. Çünki xalq Paşinyanın baş nazir kimi ölkə idarəçiliyini davam etdirməsini qətiyyən istəmir.





#### Hazırkı vəziyyət baş naziri çox qorxudur

Ermənistan paytaxtında iki həftədir fasiləsiz mitinqlər keçirilir. Sosial şəbəkələrin çoxminlik səhifələrinin ermənidilli seqmentində yayılan informasiyalardan aydın olur ki, etiraz aksiyaları istər iştirakçıların sayı, istərsə də miqyası baxımından genişlənməkdədir. Son məlumatlara görə, Yerevanda mitinq iştirakçılarının sayı 10 min nəfəri ötüb. Proseslərin bu səpkidə inkişafı baş naziri ciddi şəkildə qorxudur.

Bu arada Ermənistan polisi paytaxtdakı etiraz aksiyalarında kobud pozuntular aşkarladığını açıqlayıb. Polisin bəyanatında bildirilir ki, etirazçılar dövlətə məxsus, eləcə də mülki vətəndaşların avtomobillərinin təkərlərini kəsici və deşici alətlərlə sıradan çıxarırlar. Bu isə aksiya iştirakçılarında kəsici-deşici alətlərin, yəni soyuq silahın olduğu anlamına gəlir. Buna görə də polis aksiyada iştirak edənlərə qarşı zor tətbiqini daha da gücləndirib. Yerli mətbuatın yazdığına görə, dünən 53 nəfər polis şöbələrinə gətirilib.

Mitinqdə çıxış edən müxalifət nümayəndələri əsasən Ermənistan baş nazirinin müharibədə təslimçilik aktını imzalamasını bəhanə edərək onun hakimiyyətdən getməli olduğunu bildirirlər. Onlar həmçinin ölkədə iqtisadi vəziyyətə, hazırkı rejimin siyasətinə etiraz edirlər.

“Çiçəklənən Ermənistan” partiyasından deputat Gevorq Petrosyan baş nazir Nikol Paşinyanı dərhal istefa verməyə çağırıb. Deputat baş nazirin həbs etdirdiyi şəxslərin bu cür cəzalardan qorxmadığını bildirib. Qeyd edib ki, Paşinyan istefa verməli olduğunu yaxşı başa düşür, başqa bir seçimi də yoxdur. Müharibədə məğlub olan və torpaqları təhvil verən siyasətçinin liderliklə heç bir əlaqəsi ola bilməz.

Petrosyan artıq heç kimin Paşinyanı hökumət başçısı kimi görmək istəmədiyini diqqətə çatdırıb: “Yaxşı, utanmırsanmı, Nikol? Komandana bir az töhmət ver. Onlar sonda sənə qarşı yönələcəklər. 5000 əsgərin başını yedin. Bu gün yaralanan on min vətəndaşımız var. Üstəlik, yaralıların barmağının və ya qulağının ucu kəsilməyib, onlar ayaqlarını, əllərini itiriblər. O insanların problemlərini necə həll edəcəksiniz? Niyə hərbi vəziyyətə son qoymursunuz? İndi vəzifənizi tərk etməyinizə nə mane olur?”

Ermənistanın “Yerakir Media” telekanalının informasiya və analitik xidmətinin direktoru Geqam Manukyan jurnalistlərə açıqlamasında bildirib ki, Nikol Paşinyan müharibədəki məğlubiyyətdən sonra siyasi gücünü itirib. O qeyd edib ki, parlamentdən kənar siyasi qüvvələr baş nazir Paşinyanla görüş zamanı ona Rusiya Prezidenti Vladimir Putinlə əlaqə qurmağı təklif ediblər: “Müharibənin ilk günlərində ondan (Paşinyandan) Rusiya Federasiyasının Prezidenti ilə əlaqə saxlamağı istənildi. Heç kimə borclu olmaq istəmədiyini söylədi”.

Bu arada 44 günlük müharibədən sonra yaralanmış erməni hərbçilərinin beton üstündə yatdıqlarını, elementar şəraitdən belə məhrum olduqlarını əks etdirən videokadrlar erməni ictimaiyyətində yeni narazılıq və hiddət doğurub. “4rd.am” saytı yazır ki, vətəndaşlar komandanlığı əsgərlərə elementar kazarma şəraiti belə yaratmaq istəməməkdə günahlandırırlar.

#### Hökumətin dəstək proqramına heç kim inanmır

Aparılan müstəqil sorğulara görə, Ermənistanda baş nazirə etimad azalmaqda davam edir. Sorğuların nəticələrinə görə, hakimiyyətdə olduğu ötən müddət ərzində indiki iqtidar müharibədə məğlub olub, ölkənin makroiqtisadi göstəriciləri, əhalinin güzəranı pisləşib. Ermənistandan kütləvi köç azalmayıb, xarici borclar artıb, sərmayə yatırımına nail olunmayıb.

“İravnuk” qəzeti yazır ki, Paşinyan tərəfindən iqtisadi inkişafla bağlı formalaşdırılan ideyaları xalq hələ ki, anlaya bilmir. Amma əhalinin əsas gəlir mənbəyi olan kənd təsərrüfatında tənəzzülü ölkənin başqa sahələrində “yüksəliş”ə qatıb uğur kimi qiymətləndirmək başadüşülən deyil: “Müharibədə məğlubiyyəti qəbul etdik. Bununla yanaşı, görəsən ölkənin hələ ki, əsas aparıcı sahəsi olan kənd təsərrüfatında tənəzzülü aradan qaldırmaq üçün baş nazir nəyə ümid edir? Bəlkə ölkədə bir neçə fermerin də qatıldığı pilot məhsul sığortası hesabınamı? Qeyd edilməlidir ki, Ermənistanda kənd təsərrüfatına məsul səlahiyyətlilər hələ ki, əyalətlərdə ciddi təşəbbüslə çıxış etməyiblər. Əslində, bu da əsassız deyil. Çünki Paşinyan hökumətinin dövlətə dəstək proqramında yeni bir şey yoxdur: hamısı özündən əvvəlkilərdən qalan mirasdır. Məhz bu mənada bunların ötən illə müqayisədə daha uğurlu olacağına inanan yoxdur”.

Bu gün ölkənin ixracdan daha çox idxal etdiyini bildirən nəşr nəticə olaraq xarici ticarət balansının mənfi saldosunun dərinləşdiyini xüsusi qeyd edir. Maraqlıdır ki, nə Paşinyan “Facebook” səhifəsində, nə də onun komanda üzvləri ictimaiyyətlə ünsiyyətdə olarkən bu barədə danışmaqdan yayınırlar.

Belə halların sayının artması müxalifətin Paşinyana qarşı istifadə etdiyi çoxsaylı arqumentlər sırasına daxildir. Bu da onu göstərir ki, qarşıdakı dövr heç də Paşinyan iqtidarı üçün asan olmayacaq və belə hallar ölkədə gərginliyi daha da artıracaq.

***Elçin CƏFƏROV,***
***“Azərbaycan”***



# Arxa cəbhə



## Məktəb muzeyinə şəhidin adı verilib

### Bu muzeyi şəhid müəllim özü yaratmışdı



Qarabağ döyüşlərində şəhid olan İsmayıllı şəhər Eldar Məmmədov adına 3 nömrəli məktəb-liseyin tarix müəllimi Famil Əhmədzadənin məktəbdə yaratdığı tarix muzeyinə onun adı verilib.

AZƏRTAC xəbər verir ki, Famil Əhmədzadə 1997-ci ildən həmin məktəbdə tarix müəllimi kimi əmək fəaliyyətinə başlayıb. Azərbaycan tarixinə, maddi-mədəniyyət irsimizə marağı ilk vaxtlardan onu məktəbdə tarix muzeyi yaratmağa həvəsləndirib və çox keçmədən buna nail olub. Muzeydə eramızdan əvvəl III-II minilliyə aid dulusçuluq, XVII-XIX əsirlərə aid maddi-mədəniyyət, xüsusilə misgərlik nümunələrinin və müasir dövrün əl işlərinin yer aldığı ekspozisiyalar bura gələn hər kəsdə böyük maraq doğurur. Tarix dərslərinin çoxunu muzeydə tədris edən Famil müəllim şagirdlərə qədim, orta və müasir tariximizə aid hər bir eksponat barədə zəngin məlumat verirdi.

Sentyabrın 27-də başlanan Vətən müharibəsindən üç gün sonra Famil müəllim könüllü olaraq cəbhəyə gedib və baş leytenant kimi döyüşlərə qatılıb. Oktyabrın 14-də Suqovuşan istiqamətində gedən qızğın döyüşlərdə qəhrəmancasına həlak olub. Hazırda İsmayıllıdakı Şəhidlər xiyabanında uyuyur. Ölümündən sonra məktəbin pedaqoji kollektivi yekdilliklə tarix muzeyinə şəhidin adını verib və burada onun haqqında xüsusi guşə yaradılıb.

## Azərbaycanın ən çox ticarət əməliyyatları apardığı Körfəz ölkələri açıqlandı

Yanvar-oktyabr aylarında Azərbaycanın ən çox ticarət əməliyyatları apardığı Körfəz ölkələri sırasında ilk üçlükdə İran, Birləşmiş Ərəb Əmirlikləri (BƏƏ) və Səudiyyə Ərəbistanı qərarlaşıb.

Hesabat dövründə ölkəmizin İranla ticarət dövriyyəsinin dəyəri 274 milyon, BƏƏ ilə 33,4 milyon, Səudiyyə Ərəbistanı ilə isə 10,7 milyon dollar olub. İran və BƏƏ ilə ticarət dövriyyəsi 2019-cu ilin müvafiq dövrünə nisbətən azalıb, Səudiyyə Ərəbistanı ilə artıb.

Bu ölkələr eyni zamanda Azərbaycanın ən çox məhsul idxal etdiyi Körfəz ölkələri sırasında da ilk üçlükdədir. İrandan idxalın dəyəri 239,4 milyon, BƏƏ-dən 25 milyon, Səudiyyə Ərəbistanından isə 9,2 milyon dollar təşkil edib. İran və BƏƏ ilə idxal əməliyyatları azalıb, Səudiyyə Ərəbistanı ilə çoxalıb.

## Ölkə üzrə 204 min hektarda buğda səpilib

Ölkə üzrə təmiz herik şumu daxil olmaqla cari ilin payızlıq əkinləri üçün 805,7 min hektar sahədə şum qaldırılıb.

Dövlət Statistika Komitəsindən verilən məlumatda daha sonra xəbər verilir ki, gələn ilin məhsulu üçün 354,5 min hektar sahədə dən üçün payızlıqlar səpilib. Onun 204,7 min hektarı buğda, 149,6 min hektarı arpa və 0,2 min hektarı çovdardır.

## Biləsuvarda şəkər çuğunduru yığımı yekunlaşıb

Biləsuvarda şəkər çuğunduru yığımı başa çatıb. Rayon statistika idarəsindən AZƏRTAC-a bildirilib ki, bu il rayonda 266 hektar sahədə şəkər çuğunduru becərilib.

Məhsul istehsalçılarının yüksək məhsuldar sortların əkininə üstünlük verməsi nəticəsində plantasiyalarda məhsul bol olub. Yığıma mütəşəkkil başlayan əkinçilər sahələrdən 10 min 288 ton şəkər çuğunduru toplayaraq yığımı başa çatdırıblar. Hər hektarının məhsuldarlığı 386,8 sentner olub ki, bu da ötən ildəkindən 63,1 sentner çoxdur.

Qeyd edək ki, ötən il biləsuvarlı əkinçilər çuğundur sahələrindən 324 ton məhsul yığıblar.

# TANAP-ın daha çox qaz nəql etmək potensialı var



**Prezident İlham Əliyev: "Bizim transmilli layihələrimiz regionda tamamilə yeni mənzərə yaratdı"**

Azərbaycanın və Türkiyənin birgə layihəsi olan, bu iki ölkənin dövlət başçılarının səyi ilə gerçəkləşən TANAP ( Trans-Anadolu Qaz Boru Kəməri) artıq üçüncü ildir uğurla fəaliyyət göstərir. Təsadüfi deyil ki, Heydər Əliyev adına Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft kəməri və digər mühüm boru xətlərimiz kimi, TANAP da düşmən üçün göz dağına çevrilib.

Ermənistan silahlı qüvvələri istər bu ilin iyulunda sərhədin Tovuz istiqamətində, istərsə də sentyabr ayında bir neçə istiqamətdə yaşayış məntəqələrimizə və hərbi mövqelərimizə hücuma keçdikləri vaxtlarda sözügedən kəmərlərimizə xələl gətirmək məqsədini də güdürdülər. Lakin bütün hallarda mənfur erməni vandallarının niyyəti gözündə qaldı.

"TANAP layihəsi üçün heç bir erməni təhdidi yoxdur. Beynəlxalq birliyin bu qədər geniş dəstək göstərdiyi "Cənub qaz dəhlizi"nin Ermənistan və ya terror təşkilatları tərəfindən hədəfə alınması böyük bir səhv olardı". Bu sözləri TANAP şirkətinin baş direktoru Saltuk Düzyol deyib.

O həmçinin Qarabağda qazanılan Qələbənin Türkiyə ilə Azərbaycan arasındakı əlaqələri daha da gücləndirdiyini bildirib və əlavə edib: "TANAP Bakıdan İtaliyayadək məsafə qət edən və "Cənub qaz dəhlizi" adlanan təbii qaz təchizatı zəncirinin halqalarından biridir. Dəhlizin maraqlı tərəfləri arasında Rusiya və İngiltərə də daxil olmaqla, Avropa ölkələri və bu ölkələrin bir sıra enerji şirkətləri var. ABŞ və Avropa İttifaqı Cənub-Şərqi Avropa ölkələrinin enerji təchizatının təhlükəsizliyinin təmin edilməsi, təbii qaz tədarükündə bir mənbə və bir ölkədən asılılığın azaldılması üçün bu yeni dəhlizin açılmasına böyük siyasi dəstək verir. Ona görə də beynəlxalq ictimaiyyət tərəfindən bu qədər geniş dəstəyə sahib olan dəhlizin Ermənistan və ya terror təşkilatları tərəfindən hədəfə alınmasının çox böyük bir səhv olacağını, bəzi fərdi hadisələrdən savayı hədəfolma ehtimalının çox az olduğunu deyə bilərik".

Xəzərin Azərbaycan sektorundakı "Şahdəniz" yatağından çıxarılan qazın TANAP-la Türkiyəyə nəqlinin başlanmasından 2 il 5ay ötür. Birinci il Türkiyə bu kəmərlə 2 milyard kubmetr qaz tədarük edib. Əməliyyatların ikinci ili bu il iyunun 30-da bitib və həmin tarixə TANAP-la nəql edilən Azərbaycan qazının həcmi 5,8 milyard kubmetr olub. Sonrakı dövrlərdə isə bu kəmərlə qardaş ölkəyə ildə 6 milyard kubmetr qaz ixrac ediləcək. Belə ki, TANAP-ın ötürücülük qabiliyyəti hazırda 16 milyard kubmetrdir. İlkin mərhələdə kəmərlə nəql olunacaq 16 milyard kubmetr Azərbaycan qazının 10 milyard kubmetri Avropaya, qalanı isə Türkiyəyə çatdırılacaq. 2023-cü ildə xəttin ötürücülük gücünün 23 milyard, 2026-cı ildə isə 31 milyard kubmetr olacağı nəzərdə tutulur. TANAP şirkətinin baş direktoru S.Düzyol da vurğulayıb ki, TANAP-ın ötürücülük gücünü əlavə kompressorlar inşa etməklə 31 milyard kubmetrə çatdırmaq mümkündür. Bu da qarşıdakı illərdə Türkiyəyə əlavə 15 milyard kubmetr qazın nəqlinə şərait yaradacaq.

Xatırladaq ki, TANAP Türkiyə-Gürcüstan sərhədində CQBK-ya (Cənubi Qafqaz Boru Kəməri) qoşulub, Türkiyə-Yunanıstan sərhədində isə TAP-la ( Trans-Adriatik Qaz Boru Kəməri) birləşib. Avropa İttifaqı üçün prioritet enerji layihələrindən olan 3500 kilometrlik "Cənub qaz dəhlizi"nin "onurğa sütunu"nu təşkil edən TANAP-ın uzunluğu 1850 kilometrdir.

Kəmərin səhmlərinin 51 faizi "Cənub Qaz Dəhlizi" QSC-yə, 7 faizi "SOCAR Turkey Enerji A.Ş."yə (STEAŞ), 30 faizi "Botaş"a, 12 faizi BP şirkətinə məxsusdur. Layihəyə 6,5 milyard dollar vəsait xərclənib.

TANAP-ın açılışı 2018-ci ilin iyununda olub. İkinci fazası isə 2019-cu ilin noyabrında istifadəyə verilib və beləliklə, o, TAP-la qovuşub. Bu günlərdə artıq TAP da kommersiya əməliyyatlarına başlayıb.

Noyabrın 8-də Şuşanın mənfur düşmənin işğalından azad edilməsi münasibətilə xalqa müraciət edərkən Prezident İlham Əliyev demişdir: "Bizim transmilli layihələrimiz regionda tamamilə yeni mənzərə yaratdı. Biz regionun enerji xəritəsini, nəqliyyat xəritəsini yenidən tərtib etdik. Bizim təşəbbüsümüzlə reallaşan layihələr təkcə bizim xalqımızın maraqlarını təmin etmir, bir çox ölkələrin maraqlarını təmin edir, o cümlədən region ölkələrinin. Qonşu ölkələrlə bizim həm ikitərəfli, həm üçtərəfli əməkdaşlıq formatlarımız vardır".

TANAP-ın fəaliyyəti bunun daha bir təsdiqidir. S.Düzyolun sözlərində də kəmərin işi öz aydın əksini tapır: "TANAP-la ticari məqsədlər üçün təbii qazın nəqlinə başlandığı 2018-ci il iyunun 30-dan indiyədək Türkiyəyə 7,5 milyard kubmetr qaz nəql olunub. Layihənin investisiya dövründə Türkiyədə çalışdığımız şirkətlərə müxtəlif xidmətlər üzrə 4,5 milyard dollar ödənilib. Bu şirkətlərin bizə təqdim etdikləri mal və xidmətlərdə yerli məhsul nisbəti 54 faiz səviyyəsində olduğunu nəzərə alsaq, bu, Türkiyə iqtisadiyyatı üçün 2,5 milyard dollar əlavə dəyər deməkdir. Təkcə Türkiyənin polad boru istehsalı sənayesinə 1 milyard dollardan çox töhfə olub. Layihə ticari dövründə də ölkə iqtisadiyyatına töhfə verməkdə davam edəcək".

TANAP-ı haqlı olaraq "Enerjinin İpək yolu" adlandırırlar. Bu kəmər gələcəkdə təkcə "Şahdəniz"dən deyil, eyni zamanda Azərbaycanın digər yataqlarından çıxarılan qazı da Avropa bazarlarına nəql etmək potensialına görə mühüm siyasi və iqtisadi əhəmiyyət daşıyır.

***Flora SADIQLI,***
***"Azərbaycan"***

## "Azərbaycan regional geopolitikanı müəyyənləşdirir"

Bolqarıstanın nüfuzlu onlayn şəbəkəsi - Cross.bg "Azərbaycan regional geopolitikanı müəyyənləşdirir" (Azerbaydjan preobrazəva reqionalnata qeopolitika) mövzusunda bolqar dilində analitik məqalə dərc edib.

Məqalənin müəllifi İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin icraçı direktoru Vüsal Qasımlı yazıb ki, Azərbaycan BMT qətnamələrinə uyğun öz ərazi bütövlüyünü bərpa etdikdən sonra regionda yeni geosiyasi reallıq formalaşdırıb.

Azərbaycan "Şimal-Cənub" və "Şərq-Qərb" dəhlizlərinin üzərində yerləşməklə regionda davamlı inkişafa töhfə verir. Bir tərəfdən "yumşaq güc", digər tərəfdən isə siyasi, iqtisadi və hərbi üstünlüyü Azərbaycanı regionun aparıcı qüvvəsinə çevirib. Ermənistanın 30 illik işğal siyasətinə son qoyulmaqla regionda yeni layihələrin, o cümlədən Naxçıvan üzərindən Aralıq dənizi və Xəzər dənizi hövzələrini birləşdirən "həyat yolu"nun reallaşdırılması yeni inkişaf perspektivləri vəd edir.

V.Qasımlı məqalədə qeyd edib ki, Prezident İlham Əliyevin rəhbərliyilə Azərbaycan strateji yol xəritələrini və çevik idarəetməni uğurla reallaşdırıb. Prezident İlham Əliyevin 2020-ci ildə "Biz birlikdə güclüyük!" və "Qarabağ Azərbaycandır!" çağırışları cəmiyyətin bütün təbəqələrini vahid amal ətrafında birləşdirərək müzəffər qələbəyə aparıb.

## Oklahoma Dövlət Universiteti ilə ADAU arasında təhsil sahəsində strateji tərəfdaşlıq sazişi imzalandı

Oklahoma Dövlət Universiteti (ODU) ilə Azərbaycan Dövlət Aqrar Universiteti (ADAU) arasında təhsil sahəsində strateji tərəfdaşlıq sazişi imzalanıb. Saziş özündə ABŞ-ın nüfuzlu təhsil müəssisələrindən biri olan ODU ilə ADAU arasında təhsil və tədqiqat sahələrində əməkdaşlığı genişləndirməklə bağlı müddəaları özündə əks etdirir. İmzalanan sənəd Azərbaycanla Oklahoma ştatı arasında illərdir inkişaf edən səmərəli əməkdaşlığın xarakterinə uyğundur.



Hər iki ali təhsil müəssisəsi imzalanan sazişlə öz üzərlərinə bərabər və qarşılıqlı faydaya əsaslanan əməkdaşlıq fəaliyyəti ilə bağlı öhdəliklər götürüblər. Bu cür fəaliyyətlər universitetlər arasında mütəxəssis və tədqiqatçı alimlərin mübadiləsini, təlim, tədqiqat, araşdırma sahəsində əməkdaşlığı genişləndirməyi nəzərdə tutur. ADAU və ODU bu istiqamətdə qarşılıqlı fəaliyyətin həyata keçirilməsində bir-birilərini strateji tərəfdaş olaraq tanıyırlar.

Sazişə əsasən ADAU-nun məzunları, professor-müəllim heyəti qəbul tələblərinə cavab verdikləri təqdirdə ODU-da təhsil alacaqlar. Bu zaman onlar strateji tərəfdaş olan təhsil müəssisəsinin hüquq və imtiyazlarına sahib olacaq və rezident tələbələrə verilən imtiyazlara sahib olmaq hüququ qazanacaqlar.

Gələcəkdə hər iki universitet tərəfindən müəyyən olunacaq ixtisaslar üzrə ikili diplomların verilməsi məsələsi gündəmdədir və hazırda bu istiqamətdə danışıqlar davam edir.

## 10 ayda ölkə üzrə 2982 kiloqram qızıl istehsal olunub

Yanvar-oktyabr aylarında mədənçıxarma sənayesində istehsal olunmuş əsas məhsul növlərindən sayılan qiymətli metal filizlərinin 2982 kiloqramı qızılın payına düşüb.

Dövlət Statistika Komitəsinin məlumatında bildirilib ki, bu göstərici keçən ilin müvafiq dövrü ilə müqayisədə 4,1 faiz azalıb.

Noyabrın 1-nə olan vəziyyətə 285,4 kiloqram hazır qızıl ehtiyatı var.

# Əhmədbəyli-Füzuli-Şuşa avtomobil yolunun tikintisi icra olunur



**Noyabrın 16-da Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın işğaldan azad edilmiş Füzuli və Cəbrayıl rayonlarına səfəri zamanı Qarabağımızın tacı olan Şuşa şəhərinə qədər uzanacaq yeni avtomobil yolunun təməlqoyma mərasimindən dərhal sonra layihənin icrasına start verilib.**

Dövlət başçısının sərəncam və tapşırığına əsasən Şuşanın, ümumilikdə Qarabağın gələcək inkişaf perspektivləri nəzərə alınmaqla hazırlanan Əhmədbəyli-Füzuli-Şuşa avtomobil yolunun tikinti layihəsinin uzunluğu 101.5 km, yolun ümumi eni isə 37.7 m təşkil edəcək.

Yeni avtomobil yolunun əsas hissəsinin eni 21,5 m olmaqla 4 hərəkət zolağından ibarət olacaq. Bundan başqa, layihə üzrə hər bir istiqamətdə əlavə geniş hərəkət hissəsinə malik ehtiyat zolağın inşası da nəzərdə tutulub. Ehtiyat zolaqlarla birgə yolun 6 hərəkət zolağından ibarət olması planlaşdırılır.

Yeni Füzuli-Şuşa magistral avtomobil yolu başlanğıcını M6 Hacıqabul-Bəhrəmtəpə-Mincivan-Ermənistan Respublikası ilə dövlət sərhədi magistral yolunun Füzuli rayonunun Əhmədbəyli kəndindən keçən hissəsindən götürməklə işğaldan azad edilmiş Füzuli, Xocavənd və Xocalı rayonlarının ərazisindən keçir. Avtomobil yolu Füzuli və Şuşa şəhərləri də daxil olmaqla, sözügedən rayonların 20-dən artıq yaşayış məntəqəsini əhatə edəcək.

Hazırda "İnşaat Norma və Qaydaları"nın tələblərinə əsasən layihə boyu torpaq işləri görülür. Belə ki, Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin rəhbərliyinin birbaşa nəzarəti altında xüsusi texnikalardan istifadə olunmaqla yolun genişləndirilərək profilə salınması, həmçinin yeni yol yatağının inşası işləri aparılır. Bunun üçün əraziyə lazımi sayda qüvvə cəlb edilib.

Yeni avtomobil yolunun inşasının tərtib olunmuş qrafikə uyğun qısa müddət ərzində yekunlaşdırılması üçün layihə bir-neçə hissəyə bölünəcək. Bununla əlaqədar tikinti işlərinə çətin relyefə malik olan ərazilərdə avtomobil yollarının inşası ilə bağlı təcrübəsi olan yerli və xarici şirkətlərin cəlb edilməsi prosesi həyata keçirilir.

## Azərbaycan Avropadaxili Vergi Administrasiyaları Təşkilatının forumunda təmsil olunub

Avropadaxili Vergi Administrasiyaları Təşkilatının (IOTA) videoformatda keçirilmiş Rəqəmsal Kommunikasiya Forumu "COVID-19 pandemiyası və sonrakı dövrdə vergi administrasiyalarının kommunikasiya sahəsində fəaliyyəti" mövzusuna həsr edilib.

IOTA

AZƏRTAC Dövlət Vergi Xidmətinin İctimaiyyətlə əlaqələr şöbəsinə istinadla xəbər verir ki, tədbirdə pandemiya dövründə vergi administrasiyasında kommunikasiya sahəsində tətbiq edilən yeniliklər və bunun nəticələri, pandemiyanın vergi administrasiyalarının kommunikasiya fəaliyyətinə gətirdiyi dəyişikliklər, öyrənilmiş və gələcəkdə tətbiqi mümkün olan təcrübələr müzakirə olunub.

IOTA-nın icraçı katibi Frantisek Imrecze forumun əhəmiyyəti, kommunikasiya alətlərinin vergiödəyiciləri üçün mühüm rolu və pandemiyanın kommunikasiya metodlarına təsirləri haqqında məlumat verib.

Plenar iclas və virtual qrup sessiyalarından ibarət forumun ilk günündə "COVID-19 dövründə və sonra kommunikasiya alətləri", növbəti gün isə "Risklər, çağırışlar və gələcək üçün təcrübələr" mövzusunda plenar iclaslar keçirilib.

Böyük Britaniya, İspaniya, Sloveniya, Niderland, Moldova, Finlandiya, İrlandiya, Litva və Norveç təmsilçilərinin təqdimatları dinlənilib. Plenar sessiyalardan sonra keçirilən virtual qrup sessiyaları zamanı kommunikasiya sahəsində təcrübələr, yeniliklər və risklərin minimallaşdırılması ilə bağlı həllər ətrafında fikir mübadiləsi aparılıb.

Forumda ölkəmizi təmsil edən Dövlət Vergi Xidmətinin Media və kommunikasiya idarəsinin əməkdaşı Ülkər Nəbiyeva iştirakçılara COVID-19 pandemiyası dönəmində və karantin rejimində Azərbaycanın vergi orqanları tərəfindən daxili və xarici kommunikasiyanın təşkili, vergiödəyiciləri üçün yaradılan yeni həllər, sahibkarlıq subyektlərinə maliyyə dəstəyinin çatdırılması ilə bağlı istifadəyə verilmiş elektron məhsullar və xidmət sahəsinin elektronlaşdırılması istiqamətində görülən tədbirlər barədə məlumat verib.

Bildirilib ki, Azərbaycanda vergiödəyiciləri üçün operativ, şəffaf və rahat sistem yaratmaq, canlı ünsiyyəti minimuma endirmək və onların razılığını əldə etmək vergi siyasətinin mühüm bir hissəsidir, pandemiya şəraitində yaradılmış elektron həllər rəqəmsallaşma xidmətlərinin genişlənməsinə imkan verir.

Forumun yekun plenar iclası pandemiyanın kommunikasiya sahəsinə təsiri, pandemiya zamanı və pandemiyadan sonrakı dövrdə effektiv kommunikasiyanın qurulmasının müzakirəsi, eləcə də müzakirələrdən əldə olunmuş nəticələrin ümumiləşdirilməsi ilə başa çatıb.

# Əlilliyi olan şəxslər və sağlamlıq imkanları məhdud uşaqlar üçün açıq havada "DOST Guşəsi" idman-əyləncə sahəsi istifadəyə verilib







Heydər Əliyev Fondunun təşəbbüsü və Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin dəstəyi ilə Bakının Xətai rayonundakı idman-əyləncə park kompleksində əlilliyi olan şəxslər və sağlamlıq imkanları məhdud uşaqlar üçün "DOST Guşəsi" adlı idman və əyləncə sahəsi istifadəyə verilib.

AZƏRTAC xəbər verir ki, burada fiziki məhdudiyyətli şəxslərin müxtəlif idman növləri ilə məşğul ola bilmələri, asudə vaxtlarını keçirmələri məqsədilə, həmçinin onların istifadə imkanlarına uyğun idman avadanlıqları, karusellər və əlavə qurğular quraşdırılıb. Əlil arabasında olan şəxslər də ərazidə idmanla məşğul ola, həmçinin sağlamlıq imkanları məhdud uşaqlar əyləncə qurğularından yararlana biləcəklər.

Layihənin təqdimatında Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki Sosial Xidmətlər Agentliyinin sədri Vüqar Behbudov və Heydər Əliyev Fondunun nümayəndəsi Fidan Yusibova iştirak ediblər.

Təqdimat zamanı Prezident İlham Əliyevin həssas əhali qruplarına, o cümlədən əlilliyi olan şəxslərə xüsusi qayğısından bəhs olunub. Birinci vitse-prezident, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın təşəbbüsü ilə reallaşan layihələr sırasında sosialyönümlü, həmçinin əlilliyi olan şəxslər, sağlamlıq imkanları məhdud uşaqlara yönəlik tədbirlərin xüsusi yer tutduğu bildirilib.

Qeyd edilib ki, fiziki məhdudiyyətləri olan insanların qayğı ilə əhatə olunması, reabilitasiyası və cəmiyyətə inteqrasiya imkanlarının artırılması istiqamətində Heydər Əliyev Fondu bugünədək dövlət siyasətinə dəstək olaraq bir sıra layihələr həyata keçirib. Eyni zamanda, həmin insanlar arasında sağlam həyat tərzinin formalaşdırılması, onların idmana marağının artırılması, bu məqsədlə müvafiq şəraitin yaradılması diqqətdə saxlanılır.

Xətai rayonundakı idman-əyləncə park kompleksində "DOST Guşəsi"nin yaradılması da bu mərama xidmət edir.

Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyevanın təşəbbüsü və dəstəyi ilə artıq bir neçə ildir "Bizim həyət" layihəsi icra olunur. Bu zaman da sağlam həyat tərzinin formalaşdırılması, eləcə də əlilliyi olan şəxslər və sağlamlıq imkanları məhdud olan insanların rahat hərəkəti, asudə vaxtlarını mənalı keçirmələri üçün şəraitin yaradılması diqqətdə saxlanılır.

Bildirilib ki, Sosial Xidmətlər Agentliyi də fiziki məhdudiyyətli vətəndaşların sosial reabilitasiyası və cəmiyyətə inteqrasiyası imkanlarının artırılmasına yönələn layihələrə dəstək verir və belə layihələr gələcəkdə də davam edəcək.

# "Azercell"in Mobil Göz Klinikası BMT-nin təşəbbüsü ilə məcburi köçkünlər üçün aksiyada iştirak edib





Ölkənin lider mobil operatoru "Azercell Telekom", Birləşmiş Millətlər Təşkilatının Qaçqınlar üzrə Ali Komissarlığının (UNHCR) Azərbaycandakı Nümayəndəliyi, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi və "Xəzər Qayğıkeşlik Layihəsi" təşkilatının birgə iştirakı ilə məcburi köçkünlər üçün sosial aksiya həyata keçirilir.

Bakının Qaradağ rayonunda məcburi köçkünlər üçün salınmış "Qobu Park" qəsəbəsində baş tutan aksiyada "Azercell"in Mobil Göz Klinikasında çalışan peşəkar həkimlər qəsəbənin sakinlərini optometrik müayinədən keçirir. Müayinədən sonra görmə qabiliyyəti zəif olan vətəndaşlara Birləşmiş Millətlər Təşkilatının Qaçqınlar üzrə Ali Komissarlığının (UNHCR) Azərbaycandakı Nümayəndəliyinin vasitəçiliyi ilə Yaponiyanın "Fuji Optical" şirkətinin ianə etmiş olduğu 1500 ədəd yüksək keyfiyyətli optik eynəklər paylanılır.

Qeyd etmək lazımdır ki, "Azercell" şirkətinin Mobil Göz və Mobil Diş klinikaları vasitəsi ilə xüsusi qayğıya ehtiyacı olan vətəndaşlar üçün mütəmadi olaraq müxtəlif xeyriyyə təşəbbüsləri və sosial məsuliyyət tədbirləri həyata keçirilir. Belə tədbirlərdən biri ötən ay "Xəzər Qayğıkeşlik Layihəsi" İctimai Birliyi ilə birlikdə təşkil olunmuşdur. Ümumdünya Görmə Gününə təsadüf edən aksiya nəticəsində "Azercell"in Mobil Göz Klinikasında məcburi köçkünlər, Qarabağ müharibəsi əlilləri, şəhid ailələrinin üzvləri və sağlamlıq imkanları məhdud insanlar üçün pulsuz müayinə və müalicə təşkil olunmuşdur.

"Azercell"in sosial layihələri arasında xüsusi yer tutan Mobil Diş və Mobil Göz klinikaları 2010-cu ildən etibarən səyyar şəkildə fəaliyyət göstərərək ölkənin müxtəlif bölgələrində aztəminatlı ailələr, şəhid ailələri, məcburi köçkün və qaçqınların ailə üzvləri, kimsəsiz uşaqlar və ahıllara təmənnasız xidmət edir. Diş və göz xəstəliklərinin müayinəsinin təşkili və profilaktikasının aparılması məqsədi ilə yaradılan mobil klinikaların xeyriyyə işindən hər il minlərlə insan yararlanır.

"Azercell" şirkəti bundan sonra da əhalinin xüsusi qayğıya ehtiyacı olan həssas təbəqələri üçün müxtəlif tipli sosial təşəbbüslər həyata keçirməyi davam etdirmək niyyətindədir.


## Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dayanıqlı və Operativ Sosial Təminat Agentliyi 1 saylı Bakı DOST Mərkəzi sanitariya-epidemioloji işlərin kotirovka sorğusu üsulu ilə satın alınmasını həyata keçirir

Kotirovka sorğusunda iştirak etmək üçün qiymət təklifi (nəqliyyat, sığorta, gömrük rüsumları və digər xərclər nəzərə alınmaqla), digər zəruri sənədlər 02 dekabr 2020-ci il saat 18:00-dək mərkəzin Bakı şəhəri, Yasamal rayonu, İsmayıl Qutqaşınlı küçəsi, 86 ünvanında yerləşən ofisinə təqdim olunmalıdır. Telefon: 012 525-50-26 (daxili 9234). Zərflər 03 dekabr 2020-ci il saat 11:00-da həmin ünvanda açılacaqdır.

Maraqlananlar müvafiq məlumatları 1 saylı Bakı DOST Mərkəzinin AZ1073 Bakı şəhəri, Yasamal rayonu, İsmayıl Qutqaşınlı küçəsi, 86 ünvanında yerləşən ofisindən yazılı müraciət etməklə əldə edə bilərlər.

***Tender komissiyası***

## Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tabeliyində Dövlət Məşğulluq Agentliyi 8 saylı Ərazi Məşğulluq Mərkəzi filialı üçün ofis sahəsinin icarəsi xidmətinin kotirovka sorğusu üsulu ilə satın alınmasını həyata keçirir

Maraqlanan təşkilatlar +99412 497-71-34 telefon nömrəsi ilə əlaqə saxlaya bilərlər.

Kotirovka sorğusunda iştirak etmək üçün sənədlər 24.11.2020-ci il saat 18:00-dan 27.11.2020-ci il saat 15:00-dək qəbul olunur.

**Ünvan: AZ 1009, Bakı şəhəri, Salatın Əsgərova küçəsi, 85**
**Telefon: +99412 497-71-34**
**E-mail: dmx@mlspp.gov.az; shahin.gubadov@sosial.gov.az**

***Tender komissiyası***

## "Azərsu" ASC daxili vəsaiti hesabına *açıq tender elan edir*

"Azərsu" ASC-nin daxili vəsaiti hesabına açıq tender metodu tətbiq edilməklə elektron satınalma vasitəsilə drenaj və hidrofor tipli nasoslarının satın alınması

Malgöndərənlər (podratçılar) **https://www.etender.gov.az -** dövlət satınalmalarının vahid internet Portalından tender haqqında ətraflı məlumatı əldə edə bilərlər.

Təkliflərin qiymətləndirilməsində aşağıdakı meyarlara üstünlük veriləcəkdir: **Tender predmeti üzrə oxşar iş təcrübənin mövcudluğu, çatdırılma, anbar ehtiyatı və ən aşağı qiymət təklifi.** Malgöndərənlər (podratçılar) müəyyən edilən məbləğdə iştirak haqqını aşağıda göstərilən hesaba köçürdükdən sonra tender təklifini dövlət satınalmalarının vahid internet Portalından əldə edə bilərlər.

**Tenderdə iştirak haqqı 500 manatdır.**

**Təşkilat: "Azərsu" ASC**
**VÖEN: 9900001751**
**Bank: "Kapital Bank"ASC-nin 1 saylı Nəsimi filialı**
**Kod: 200112**
**VÖEN: 9900003611**
**M/h: AZ37NABZ 01350100000000001944**
**S.W. I. F. T. BIK: AIIBAZ2X**
**H/h: AZ65AİİB 33070019441100216111**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

Malgöndərənlər (podratçılar) tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak haqqının ödənilməsi barədə sənəd;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *malgöndərənlərin (podratçıların) son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *malgöndərənin (podratçının) son bir ildəki (əgər daha az müddət fəaliyyət göstərirsə, bütün fəaliyyəti dövründəki) maliyyə vəziyyəti barədə bank tərəfindən verilmiş arayışı;*
- *malgöndərənin (podratçının) tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları.*

Malgöndərənlər (podratçılar) tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) **29 dekabr 2020-ci il saat 18:00-a** qədər, tender təklifi və bank təminatını isə **07 yanvar 2021-ci il saat 18:00-a** qədər dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə təqdim etməlidirlər.

Elektron satınalmanın açılışı **08 yanvar 2021-ci il saat 18:00-da** dövlət satınalmalarının vahid internet Portalında həyata keçiriləcəkdir.

***Tender komissiyası***

## Azərbaycan Respublikasının Sahibkarlığın İnkişafı Fondu Texnika, avadanlıqlar və lisenziyaların satın alınması məqsədi ilə *açıq tender elan edir*

Tender iştirakçılarına təklif edilir ki, dövlət satınalmalarının https://www.etender.gov.az/ vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyən təşkilatlar müəyyən edilən məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra müsabiqə üçün təkliflərini Portal vasitəsilə təqdim edə bilərlər.

İştirak haqqı 500 manatdır.

**Sahibkarlığın İnkişafı Fondu**
**VÖEN: 1305619841**
**Hesablaşma hesabı: AZ03PAHA36015AZNHC0100089628**
**Bankın adı: PAŞA Bank ASC**
**Kod: 505141**
**VÖEN: 1700767721**
**Müxbir hesab: AZ82NABZ01350100000000071944**
**S.W.I.F.T. PAHAAZ22**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır və ya tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə aid yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması, habelə son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergiödəyicisinin Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin yerinə yetirilməməsi hallarının mövcud olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının tam hüquqi adı, statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *malgöndərənin (podratçının) ixtisas göstərcilərinə aid məlumat;*
- *tenderin Əsas şərtlər toplusunda qanunvericiliklə nəzərdə tutulan və tələblərindən irəli gələn digər sənədlər.*

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender sənədləri Azərbaycan dilinə tərcümə edilməlidir). İddiaçılar tender ilə bağlı sualları Portal vasitəsilə satınalan təşkilata ünvanlaya bilərlər. Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir. İddiaçılar tenderdə iştirak etmək üçün ixtisas göstəricilərinə aid sənədləri 15 dekabr 2020-ci il saat 15:00-a, tender təklifi ilə bank təminatı sənədlərini isə 23 dekabr 2020-ci il saat 15:00-dək Portal vasitəsilə təqdim etməlidirlər. İddiaçıların təklifləri 24 dekabr 2020-ci il saat 15:00-da açılacaqdır.

İddiaçılar açılışın nəticələri ilə Portal vasitəsilə tanış ola bilərlər.

QEYD - Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada Portal vasitəsilə aparılır.

İddiaçılar E-şərtlər toplusunu 25.11.2020-ci il saat 12:00-dan sonra (elan tarixi günü) əldə edə bilərlər.

***Tender komissiyası***

## "Bakı Metropoliteni" QSC müxtəlif növ metal məmulatlarının satın alınması üzrə *açıq tender elan edir*

Tender 1 (bir) LOT üzrə keçirilir: **"Bakı Metropoliteni" QSC üçün müxtəlif növ metal məmulatlarının satın alınması**

Tender iştirakçılarına təklif edilir ki, **https://www.etender.gov.az/ - dövlət satınalmalarının vahid internet Portalına (Portal)** elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyən təşkilatlar LOT üzrə müəyyən edilən məbləğdə iştirak haqqını yalnız "ASAN Ödəniş" vasitəsilə həyata keçirdikdən sonra Azərbaycan dilində tərtib olunmuş Əsas şərtlər toplusunu **https://www.etender.gov.az/ - dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə** adıçəkilən tender bölməsində əldə edə bilərlər. Əlaqələndirici şəxs: Rauf Yusifov, telefon: 490-01-01.

**İştirak haqqı - 300 manat**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları.*

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender sənədləri Azərbaycan dilinə tərcümə olunmalıdır). İddiaçılar tender ilə bağlı sualları Portal vasitəsilə satınalan təşkilata ünvanlaya bilərlər.

Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün ixtisas göstəricilərinə dair sənədləri **15 dekabr 2020-ci il saat 15:00-a** qədər və tender təklifi ilə bank təminatı sənədlərini **23 dekabr 2020-ci il saat 15:00-a** qədər Portal vasitəsilə təqdim etməlidirlər.

İddiaçıların təklifləri **24 dekabr 2020-ci il saat 15:00-da** açılacaqdır.

İddiaçılar açılışın nəticələri ilə Portal vasitəsilə tanış ola bilərlər.

*QEYD: Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada Portal vasitəsilə aparılır.*

***Tender komissiyası***


# Ağdam rayonunun Gülablı kəndində məskunlaşan ermənilər şəxsi əşyalarını çıxarmaq üçün hərbçilərimizə müraciət ediblər

İşğaldan azad olunan Ağdam rayonunun Gülablı kəndində məskunlaşan erməni əsilli mülki vətəndaşlar yaşayış yerlərindən şəxsi əşyalarını çıxarmaq üçün Azərbaycan Ordusunun hərbi qulluqçularına müraciət ediblər.

Bununla bağlı yayılan videoda hərbi qulluqçularımızın azad edilmiş torpaqlarımızda məskunlaşan ermənilərin yaşayış yerlərindən əşyalarının təxliyəsi və onların təhlükəsizliklərinin təmin edilməsi məqsədilə beynəlxalq humanitar hüququn norma və prinsiplərinə, o cümlədən 1949-cu il Cenevrə Konvensiyasının müddəalarına uyğun olaraq zəruri humanitar dəstək göstərmələrinə dair görüntülər yer alıb.

AZƏRTAC




# Nizami rayonunda "Bizim həyət" layihəsi çərçivəsində abadlaşdırılan növbəti həyət sakinlərin istifadəsinə verilib

Noyabrın 24-də Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyevanın təşəbbüsü ilə həyata keçirilən "Bizim həyət" layihəsi çərçivəsində növbəti abadlaşdırılmış həyət sakinlərin istifadəsinə verilib.



AZƏRTAC xəbər verir ki, yenilənmiş həyət Nizami rayonu, Şirin Mirzəyev küçəsi, 58, 58A və Qara Qarayev küçəsi, 33, 37 ünvanında 2200 nəfər sakinin yaşadığı binaları əhatə edir.

"Bizim həyət" layihəsinin əsas məqsədi Bakı həyətlərinin ekoloji cəhətdən təmiz və abad edilməsi, şəhər ekologiyasının sütununu təşkil edən yaşıllıqların bərpası, sağlam həyat tərzinin formalaşdırılması, sakinlər üçün təhlükəsiz və rahat yaşam şəraitinin yaradılmasıdır.

IDEA İctimai Birliyinin icraçı direktoru Surxay Şükürov KİV nümayəndələrinə müsahibəsində bildirib: "Sağlam mühit sağlam həyat deməkdir. Buna əsaslanaraq IDEA İctimai Birliyi təşkilatın təsisçisi və rəhbəri Leyla Əliyevanın rəhbərliyi altında "Bizim həyət" layihəsini ardıcıl olaraq davam etdirir. Xəstəliyin geniş yayıldığı bir vaxtda bu layihəyə xüsusi əhəmiyyət verilir".

Abadlaşdırılan növbəti həyətdə sağlamlıq imkanları məhdud olan insanların da rahat hərəkəti nəzərə alınıb, bütün yaş qrupları üzrə uşaqların inkişafı üçün əlverişli şəraitin yaradılması, gənclərin asudə vaxtlarının səmərəli keçirmələri və onlarda sistematik idmanla məşğulolma refleksinin yaradılması məqsədilə müxtəlif idman qurğuları, futbol və şahmat meydançaları, uşaqlar üçün oyun meydançası salınıb. Eyni zamanda ərazidə 5 söhbətgah inşa edilib, oturacaqlar, tullantılar üçün qutular quraşdırılıb.

Sakinlərin istək və maraqları nəzərə alınaraq həyətdə yeni işıqlandırma dirəkləri, təhlükəsizlik kameraları quraşdırılıb, binaların fasadları, dam örtükləri və giriş hissələri tam təmir olunub. Həyətin ərazisindəki mövcud yaşıllıqların bərpası ilə yanaşı, əlavə olaraq xüsusi karantin rejiminin qaydalarına riayət etməklə 30 ağac əkilib və 2500 kvadratmetr ərazidə yaşıllıq zolağı salınıb.

Yenilənmiş həyətdə karantin dövrünün tələblərinə uyğun olaraq tibbi-profilaktiki tədbirlər həyata keçirilib, dezinfeksiya dispenserləri qoyulub, karantin rejimi qaydalarına riayət olunması ilə bağlı xəbərdarlıq edən maarifləndirici lövhələr quraşdırılıb.

Sözügedən layihənin Bakının bütün rayonlarında həyata keçirilməsi nəzərdə tutulur. Bununla əlaqədar paytaxtımızın abadlaşdırılmaya ehtiyacı olan həyətləri haqqında məlumat və tövsiyələrin IDEA İctimai Birliyinə təqdim edilməsi xahiş olunur.

## BİLDİRİŞ

**"Azərenerji" Açıq Səhmdar Cəmiyyəti tərəfindən 2 ədəd qaldırıcı açıq kabini olan yeni yük avtomobilinin satın alınması** məqsədilə 02 oktyabr 2020-ci il tarixdə elan edilmiş açıq tender "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununun 11.1-ci maddəsinə əsasən baş tutmamış hesab olunduğu üçün davamından imtina edilmişdir.

***Tender komissiyası***

## Sığorta sektorunda ləğv edilmiş lisenziyalar barədə məlumat

**24.11.2020-ci il, Bakı** - "Sığorta fəaliyyəti haqqında" Azərbaycan Respublikası Qanununun 107.1.1-ci maddəsinə və Azərbaycan Respublikası Mərkəzi Bankının İdarə Heyətinin 19 noyabr 2020-ci il tarixli qərarına əsasən Abbasov Tural Şöhrət oğluna sığorta agenti fəaliyyətinə verilmiş 05 mart 2012-ci il tarixli 000581 nömrəli lisenziya ləğv edilmişdir.

## BİLDİRİŞ

"Bakı Metropoliteni" QSC tərəfindən 03 dekabr 2020-ci il saat 11:30-da keçirilməsi nəzərdə tutulan "Bakı Metropoliteni" QSC üçün mişar daşının satın alınması üzrə açıq tenderin vaxtı 17 dekabr 2020-ci il saat 14:00-a keçirilmişdir. Bununla əlaqədar iddiaçılar tenderdə iştirak etmək üçün ixtisas göstəricilərinə dair sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) 08 dekabr 2020-ci il saat 14:00-a qədər, tender təklifi və bank təminatını isə 16 dekabr 2020-ci il saat 14:00-a qədər Portal vasitəsilə təqdim etməlidirlər.

***Tender komissiyası***

## Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti kreslo və stulların təkliflər sorğusu üsulu ilə satın alınmasını həyata keçirir

Maraqlanan şəxslər (+994 12) 403-87-91 telefon nömrəsi ilə əlaqə saxlaya bilərlər.

Təkliflər sorğusunda iştirak etmək üçün sənədlər 25 noyabr 2020-ci il saat 09:00-dan 01 dekabr 2020-ci il saat 18:00-a qədər qəbul olunur.

Ünvan: AZ1073, Bakı şəhəri, Yasamal rayonu, akademik Lev Landau küçəsi, 16.

***Tender komissiyası***

## "Bakı Telefon Rabitəsi" Məhdud Məsuliyyətli Cəmiyyəti
## *açıq tender elan edir*

Tender 2 LOT üzrə keçirilir:

**LOT 1 - GPON qoşulmalarında istifadə olunacaq alət, ləvazimat və mal-materialların satın alınması.**

**LOT 2 - Televiziya kanallarının kabel şəbəkəsi ilə yayımlanması məqsədilə müvafiq kanalların yayım hüququnun (lisenziyanın) açıq tender üsulu ilə satın alınması.**

Tender iştirakçılarına təklif edilir ki, "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, tender təkliflərini dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə təqdim etsinlər. İddiaçılar öz tender təkliflərində bütün vergi və rüsumları, təyinat yerinə daşıma xərclərini nəzərə almalıdırlar.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər

**LOT 1 üzrə 300 (üç yüz) manat (ƏDV daxil)**

**LOT 2 üzrə 100 (bir yüz ) manat (ƏDV daxil)**

iştirak haqqını sifarişçinin aşağıdakı hesablaşma hesabına "ASAN Ödəniş" portalı vasitəsilə ödədikdən sonra dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə tenderin Əsas şərtlər toplusunu ala bilərlər.

**VÖEN: 9900044741**
**Hesab: AZ14AZPO91015461200420100157**
**Bankın adı: Azərpoçt MMC PF 1**
**Kodu: 691011**
**Bankın VÖENi: 9900037711**
**M/h: AZ76NABZ01350100000000094944**
**S.W.I.F.T: AZPOAZ22**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

Tenderin Əsas şərtlər toplusu Azərbaycan dilində tərtib edilmişdir.

Tenderdə iştirak etmək istəyənlər **16 dekabr 2020-ci il saat 16:00-dək** aşağıdakı sənədləri dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə təqdim etməlidirlər (tender təklifi və təklifin təminatı 1 faiz bank zəmanəti istisna olmaqla). Göstərilən vaxtdan gec təqdim edilən sənədlər qəbul edilməyəcəkdir.

1. *Tenderdə iştirak etmək üçün yazılı müraciət.*
2. *Tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi.*
3. *Tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır).*
4. *Tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır).*
5. *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin, habelə son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergi ödəyicisinin Azərbaycan Respublikası Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin olmaması haqqında müvafiq vergi və sosial orqanlarından arayış.*
6. *İddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti.*
7. *İddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı.*
8. *İddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri.*
9. *İddiaçının müvafiq mallar üzrə uyğunluq sertifikatları.*
10. *Digər sənədlər.*

İddiaçılar tender təklifini və bank təminatını **24 dekabr 2020-ci il saat 17:00-a** qədər dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə təqdim etməlidirlər. Göstərilən vaxtdan gec təqdim olunmuş təkliflər qəbul edilməyəcəkdir.

Yuxarıda göstərilən sənədlər düzgün tərtib olunub vaxtında təqdim edildiyi təqdirdə tenderdə iştirak etmək istəyən malgöndərən iddiaçı kimi qeydə alınacaqdır.

İştirakçıların təklifləri **25 dekabr 2020-ci il saat 16:00-da** dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə açılacaqdır.

**Qeyd: Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada etender@gov.az dövlət satınalmalarının vahid internet Portalında aparılır.**

***Tender komissiyası***

## BİLDİRİŞ

"Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyi" Publik Hüquqi Şəxsi tərəfindən Əlillik (TSERAS) altsisteminin təkmilləşdirilməsi xidmətinin satın alınması məqsədilə elan edilmiş açıq tenderin qalibi "Bakinity" MMC olmuşdur.

Qalib təşkilatla müvafiq satınalma müqaviləsi bağlanmışdır..

***Tender komissiyası***

## ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Respublikası Ali Məhkəməsinin kollektivi Azərbaycan Respublikası Ali Məhkəməsinin mətbuat katibi Allahverdi Məmmədliyə qardaşı

**KAMİL MƏMMƏDOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Respublikası Ərazilərinin Bərpası və Yenidən Qurulması üzrə Agentliyin rəhbərliyi və kollektivi YAP sədrinin müavini Əli Həsənova bacısı

**DİLBƏR ƏHMƏDOVANIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Bakı Dövlət Universitetinin Qafqaz xalqları tarixi kafedrasının müdiri, tarix elmləri doktoru, professor İradə Hüseynova və kafedranın əməkdaşları kafedranın dosenti

**RAFİQ ORUC OĞLU QURBANOVUN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

---

Tahir Budaqov Yeni Azərbaycan Partiyası İdarə Heyətinin üzvü Hacıbala Abutalıbova qardaşı

**OSMAN ABUTALIBOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri, Milli Məclisin deputatı Səttar Möhbalıyev Yusif İldırımzadəyə atası, Əməkdar jurnalist

**ƏLİ İLDIRIMOĞLUNUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri, Milli Məclisin deputatı Səttar Möhbalıyev YAP sədrinin müavini Əli Həsənova bacısı

**DİLBƏR ƏHMƏDOVANIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Tahir Budaqov Yeni Azərbaycan Partiyası sədrinin müavini Əli Həsənova bacısı

**DİLBƏR ƏHMƏDOVANIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Tahir Budaqov Yusif İldırımzadəyə atası, yazıçı-publisist, Əməkdar jurnalist

**ƏLİ İLDIRIMOĞLUNUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan

AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar
Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 539-72-39,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
İctimai əlaqələr şöbəsi - 539-49-20, 538-31-11,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Kompüter mərkəzi - 538-20-87,
Mühasibatlıq - 539-59-33

Qeydiyyat nömrəsi 1
"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet
Tiraj 7466
Sifariş 2649
Qiyməti 40 qəpik